# Mövzu 8.
# BİM sistemində beynəlxalq iqtisadi təşkilatlar

## 8.1. Beynəlxalq iqtisadi münasibətlərin dövlətlərarası tənzimlənməsinin formalaşması, təkamülü və müasir sistemi

Təsərrüfat həyatının beynəlmiləlləşməsi, dünya iqtisadiyyatında ölkələrin qarşılıqlı asılılığının güclənməsi, qlobal problemlərin yaranması və kəskinləşməsi beynəlxalq iqtisadi münasibətlərin məqsədyönlü tənzimlənməsini obyektiv zərurətə çevirmişdir.

Dünya təsərrüfatının ayrı-ayrı sahələrinin çoxtərəfli dövlətlərarası tənzimlənməsi hələ ikinci dünya müharibəsinə qədər meydana gəlmişdir. Lakin, dövlətlərarası tənzimləmə beynəlxalq iqtisadi münasibətlərdə yalnız müharibədən sonrakı illərdə ciddi amilə çevrilmişdir.

***Beynəlxalq münasibətlərin dövlətlərarası tənzimlənməsi müxtəlif ölkələrin könüllü surətdə öz üzərlərinə götürdükləri öhdəliklərin və dünya təsərrüfat əlaqələri sferasında ümumi davranış qaydalarının məcmusudur.***

Dünya təsərrüfatının müharibədən sonrakı illərdə inkişafı göstərir ki, ***beynəlxalq iqtisadi münasibətlərin dövlətlərarası tənzimləmə sisteminin formalaşması və inkişafının əsas təkanverici amilləri*** aşağıdakı proseslər olmuşdur.

*Birincisi,* ***gömrük tariflərinin aşağı salınması yolu ilə beynəlxalq ticarətin liberallaşdırılmasının zəruriliyi:*** ikinci dünya müharibəsi nəticəsində dağılmış Avropa iqtisadiyyatı sürətli bərpa prosesini tələb edirdi ki, bu da xarici ticarət əlaqələrinin aktivləşdirilməsini, kapitalın sərbəstə hərəkətinin dəstəklənməsini, beynəlxalq hesablaşmalar sisteminin qaydaya salınmasını nəzərdə tuturdu. Bu amil Bretton-Vuds konfransının qərarlarında və QATT, BVF, BYİB kimi beynəlxalq təşkilatların yaranmasında mühüm rol oynadı. Sonradan əksər ölkələr başa düşdülər ki, azad beynəlxalq ticarət dinamik artıma yol açır, dünya üzrə texnologiyanı hərəkət etdirir, əmək məhsuldarlığının artırılmasını stimullaşdırır, müəssisələr üçün irihəcmli dünya bazarlarını açır.

*İkincisi,* ***imperializmin müstəmləkə sisteminin dağılması və azadlıq qazanmış ölkələrin iqtisadi inkişafının təmin edilməsi:*** bu ölkələr 1960-1970-ci illərdə dünya təsərrüfat əlaqələrinin yenidən qurulması, yeni iqtisadi qaydanın bərqərar edilməsi tələbləri

ilə çıxış etməyə başladılar. Onlar həmçinin daha yüksək qiymət səviyyələrində xammal bazarlarının sabitləşdirilməsini, sənayecə inkişaf etmiş ölkələrdə proteksionizmin aradan qaldırılmasını, texnologiyaların ötürülməsi üçün güzəştli şərtlər, maliyyə yardımının artırılmasını və s. tələb edirdilər.

Nəticədə daha əvvəl yaradılmış beynəlxalq təşkilatlar (BVF, BYİB, QATT) öz daxillərində bircinsliyi (sınayecə inkişaf etmiş ölkələrin timsalında) itirdilər və bu təşkilatlara Asiya, Afrika və Latın Amerikasının azadlıq qazanmış ölkələri üzv oldular. Bundan başqa, bir sıra yeni iqtisadi təşkilatlar (məsələn, YUNKTAD – BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı) yaradıldı.

*Üçüncüsü,* ***1970 və 1980-ci illərin xammal və ərzaq böhranları, bu böhranların neft ixrac edən ölkələrin davranışları ilə daha da kəskinləşməsi sənayecə inkişaf etmiş ölkələrdə struktur böhranları*** inkişaf etmiş ölkələrin OPEC ölkələrinə münasibətdə razılaşdırılmış mövqelərinin olmasını və onların milli iqtisadiyyatların struktur yenidənqurması prosesində birgə səylərini obyektiv zərurətə çevirdi.

*Dördüncüsü,* ***dünya iqtisadiyyatının qloballaşması, ölkələrin qarşılqılı əlaqələrinin və asılılıqlarının güclənməsi, milli iqtisadiyyatların dünya təsərrüfatında baş verən dəyişikliklərə uyğunlaşma zəruriliyi*** sənayecə inkişaf etmiş aparıcı ölkələrin iqtisadi siyasətlərinin koordinasiyasını, milli siyasətlərin və beynəlxalq sabitliyin zəruri uyğunluğunu təmin edə biləcək əməkdaşlıq və müqavilələrin müxtəlif metodlarının işlənməsini tələb edirdi. 1980-ci illərdə daim meydana gələn ticarət müharibələrinin fonunda beynəlxalq iqtisadi münasibətlərinin razılaşdırılmış ölkələrarası tənzimlənməsi dünyada bir çox təhlükəli iqtisadi situasiyaların həll vasitəsi kimi çıxış edirdi. Dünyanın aparıcı ölkələrinin iqtisadi siyasətlərinin koordinasiyası məqsədilə 1961-ci ildə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı yaradıldı, "böyük yeddilik" ölkələrinin (ABŞ, Yaponiya, Böyük Britaniya, Fransa, Almaniya, İtaliya) ən yüksək səviyyələrdə müntəzəm görüşləri praktikaya çevrildi və s.

*Beşincisi,* ***transmilli şirkətlərinin güclənməsi:*** bu şirkətlərin fəaliyyəti milli sərhədlərin çərçivəsindən kənara çıxır və onların maraqları həm mənsub olduqları ölkələrin, həm də fəaliyyət göstərdikləri ölkələrin milli iqtisadiyyatlarının inkişaf maraqları ilə ziddiyyətə girir ki, bu da onların fəaliyyətinin tənzimlənməsinin forma və metdolarının tapılmasını zərurətə çevirib. Nəticədə, BMT-də transmilli şirkətlər üzrə mərkəz açılmışdır.

*Altıncısı,* ***regional iqtisadi inteqrasiya proseslərinin intensiv inkişafı*** regional tənzimləyici strukturların yaradılması yolu ilə beynəlxalq iqtisadi münasibətlərin dövlətlərarası tənzimlənməsinin məzmununu dərinləşdirdi və onun formalarının çeşidini artırdı. Bu özünü xüsusilə Avropa iqtisadi məkanında parlaq surətdə göstərdi.

Beynəlxalq iqtisadi münasibətlərin dövlətlərarası tənzimləmə sistemi özündə tənzimləmənin obyektlərinin, subyektlərinin və alətlərinin məcmusunu əks etdirir (Sxem 1).

**Sxem 1.**

**Beynəlxalq iqtisadi münasibətlərin dövlətlərarası tənzimləmə sistemi**



*Yeddincisi,* ***dünya kapitalist təsərrüfatının və dünya sosialist təsərrüfatının 45 illik qarşıdurması,*** həmçinin, ***sonuncunun dağılması*** dünya təsərrüfat əlaqələrinin dövlətlərarası tənzimlənmə sisteminin formalaşma və funksiya göstərmə proseslərinə müəyyən düzəlişlər edilməsinə səbəb oldu. Belə ki, İxrac Nəzarəti üzrə Koordinasiya Komitəsi yaradıldı ki, bu təşkilat da sosialist ölkələrinə və sosialist orientasiyalı inkişaf etməkdə olan ölkələrə ikili təyinatlı (mülki və hərbi) əmtəələrin satışını və texnologiyaların ötürülməsini məhdudlaşdırdı. Qarşılıqlı İqtisadi Yardım Şurası (QİYŞ) sosialist ölkələrinin xarici iqtisadi əlaqələrinin koordinatoru rolunu oynayırdı. Keçmiş sosialist ölkələrinin iqtisadiyyatın planlı inkişafından imtina etmələri və onu bazar əsasına keçirmələri, QİYŞ-in dağılması, bu ölkələrin regional və dünya səviyyəli tənzimləyici strukturlara daxil olmalarına gətirib çıxardı.

*Səkkizincisi,* ***qlobal problemlərin kəskinləməsi*** (ətraf mühitin qorunması, nüvə müharibəsi, demoqrafik, xammal, ırzaq və s. problemlər) BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Atom Enerjisi üzrə Beynəlxalq Agentlik (MAQATE), Ümudünya Səhiyyə Təşkilatı (ÜST) və s. bu kimi təşkilatların, beynəlxalq iqtisadi münasibətlərin dövlətlərarası tənzimləmə sisteminin yeni elementlərinin yaranmasının təkanverici qüvvəsi olmuşdur.

Tənzimləmə obyektləri dərsliyin əvvəlki bölmələrində nəzərdən keçirildiyindən burada üstmilli tənzimlənmənin müasir praktikada istifadə olunan subyektləri və alətlərini xarakterizə edəcəyik.

***Beynəlxalq konfrans*** qarşıya qoyulmuş məsələləri müzakirə etmək və razılaşdırılmış qərarlar qəbul etmək üçün iştirak edən dövlətlərin müvəqqəti orqanıdır. Qeyd etmək lazımdır ki, "konfrans" ümumiləşdirici termini ənənəvi olmaqla getdikcə daha az hallarda istifadə edilir. Bu termin kodifikasiya xarakterli konvensiyalar qəbul edən konfranslara (məsələn, diplomatik münasibətlər haqqında Vyana konfrnası, dəniz hüququ üzrə konfrans) münasibətdə qorunub saxlanmışdır. Hazırda hətta çoxsaylı iştirakçıları olan görüşlər də ***iclas*** adlandırılmağa başlanıb. Nümunə kimi "böyük yeddilik" ölkələrinin hər il keçirilən görüşlərini göstərmək olar.

Məhdud tərkibli iclaslarda qərarlar yekdilliklə qəbul edilir. Geniş tərkibli konfranslarda prosedur məsələlər "səsvermədə olanların və iştirak edənlərin" (iştirak etməyənlər və bitərəf qalanlar hesaba alınmırlar) sadə əksəriyyəti formasında qəbul edilir.

Yekun mətn adətən 2/3 əksəriyyətlə qəbul edilir. "Konsensus" prosedurundan tez-tez istifadə edilir – qərarlar əleyhdarlar olmadan qəbul edilir.

Məhdud tərkibli görüşlərin qərarları adətən birgə bəyanatda və ya kommünikedə əks edilir. Geniş tərkibli konfranslar işin nəticələrini və qəbul olunan qərarlarən mətnini əks etdirən yekun aktlar qəbul edirlər. Qəbul edilmiş müqavilənin mətnini əks etdirən aktın imzalanması müqavilənin özünün imzalanması deməkdir. Konfransların qətnamələri hüquqi cəhətdən məcburi deyildir, lakin nəzərdə tutulur ki, qətnaməni imzalamış ölkələr mənəvi-siyasi öhdəlik kimi ona əməl edəcəklər.

***Daimi beynəlxalq orqanlar*** məhdud səlahiyyətlərə və sadə struktura malik qarşılıqlı təsir orqanlarıdır: məsələn, Baltik dənizi dövlətlərinin Şurası, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Dunay komissiyası və s.

Bu cür orqanların əsası kimi üzv-dövlətlər arasında müqavilə çıxış edir. Təşkilati struktur kifayət qədər inkişaf etmiş və təşkilata yaxınlaşmış ola bilər. Baltik dənizi dövlətlərinin Şurası xarici işlər nazirlərinin Şurasına, insan haqları üzrə komissara, işçi qruplarına malikdir. Digər orqanlarda struktur daha sadədir, məsələn Dunay komissiyası komissiyanın özündən və katiblikdən ibarətdir.

***Beynəlxalq qarışıq komissiyalar*** ikitərəfli və ya daha geniş sazişlərin əsasında yaradılır və bu sazişlərin həyata keçirilməsi məqsədini daşıyır. Onlar sazişlərin həyata keçirilməsinə aid olan məsələlər baxır, əməkdaşlıq proqramları qəbul edir, onların reallaşdırılması qaydasını müəyyən edir, sazişlərin yerinə yetirilməsinə nəzarət edirlər. Onlara tövsiyələr qəbul etmək hüququ verilmişdir.

***Beynəlxalq təşkilat*** üzv-dövlətlərin müqaviləsi ilə təsis edilmiş, iştiakçılar tərəfindən razılaşdırılmış məqsədlərə, səlahiyyətli orqanlara və digər atributlara (nizamnamə, üzv olma qaydası və s.) malik təşkilatdır. Bu müqavilə həmin təşkilata beynəlxalq təşkilat statusu verir.

Beynəlxalq təşkilatlar müxtəlif adlar daşıyırlar – təşkilat, fond, bank, birlik, agentlik – lakin bu, təşkilatın statusuna təsir etmir.

Beynəlxalq təşkilatların növlərini bir sıra meyarlara görə müəyyən etmək olar.

*Üzvlərin dairəsindən asılı olaraq,* ***ümumi*** və ya ***məhdud tərkibli təşkilatlar***ı fərqləndirirlər. Ümumi və ya universal təşkilatlar potensial olaraq bütün dövlətlərin iştirakı üçün nəzərdə tutulub, lakin hazırda bəzi dövlətlər müxtəlif səbəblərdən hətta BMT-nin də

işində iştirak etmirlər. Bu cür təşkilatlara BMT sisteminə daxil olan təşkilatları aid etmək olar.

Məhdud tərkibli təşkilatlar regional ola bilərlər, yəni onlar müəyyən ərazidə yerləşən ölkələr üçün açıqdırlar. Məsələn, Müstəqil Dövlətlər Birliyi, Ərəb Dövlətlərinin Liqası, Avropa Şurası.

Digər hallarda üzvlük imkanı başqa meyarlarla müəyyən edilir. Iqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatında yalnız sənayecə inkişaf etmiş ölkələr iştirak edirlər. OPEC-in üzvləri yalnız əsas gəlir mənbəyi neftin ixracı olan ölkələr ola bilərlər.

*Səlahiyyət xarakterindən asılı olaraq* təşkilatlar ***ümumi və xüsusi səlahiyyətə malik təşkilatlar***a bölünürlər. Birinci halda səlahiyyət hər hansı bir əməkdaşlıq sahəsi ilə məhdudlaşmayıb. Nümunə kimi BMT-ni göstərmək olar. Bu təşkilat istənilən beynəlxalq problemi nəzərdən keçirə bilər. Burada yalnız onun ixtisaslaşdırılmış təşkilatlarının səlahiyyətinə aid edilən konkret məsələlər istisna təşkil edir. Bu cür geniş səlahiyyət universal təşkilatların fəaliyyətində özünü göstərməyə bilməz. Belə ki, bu cür təşkilatlar məcburi xarakterli qərarlar qəbul etmək hüququna malik deyillər və buna görə də müzakirə və tövsiyələrin qəbulu ilə kifayətlənirlər. Sülhün təmin edilməsi üçün yalnız BMT-nin Təhlükəsizlik Şurası üçün istisna edilmişdir. Təhlükəsizlik Şurası müəyyən hallarda hüquqi cəhətdən məcburi qərarlar qəbul edə bilər.

***Təşkilatların əksəriyyəti məhz dövlətlərarasıdır,*** üstmilli hakimiyyətə malik deyillər, üzvlər onlara öz hakimiyyət funksiyalarını vermirlər. Bu cür təşkilatların vəzifəsi əməkdaşlığın tənzimlənməsindən ibarətdir.

Bununla yanaşı, hazırda, ***üstmilli təşkilatlar*** da mövcuddur. Dövlətlər bəzi suveren səlahiyyətlərinin həyata keçirilməsin bu cür təşkilatlara verirlər. Müəyyən məsələlər üzrə onlar hüquqi və fiziki şəxslər üçün bilavasitə məcburi olan qərarlar qəbul edə bilərlər. Bu təşkilatlar qəbul etdikləri qərarların məcburi həyata keçirilməsi mexanizminə malikdirlər. Nümunə kimi Avropa Birliyinin üzv-ölkələrinin dövlətlərarası orqanlarını göstərmək olar.

Beynəlxalq təşkilatda baş verən prosesin mahiyyəti onun üzvlərinin maraqlarının aşkarlanmasından, onların razılaşdırılmasından, bu əsasda ümumi mövqenin işlənməsindən, müvafiq vəzifələrin, həmçinin qərarların həyata keçirilməsinin metod və vasitələrinin müəyyən edilməsindən ibarətdir.

Təşkilatın fəaliyyətinin əsas mərhələləri müzakirədən, qərarların qəbulundan və onların yerinə yetirilməsi üzərində nəzarətdən ibarətdir. Buradan ***beynəlxalq təşkilatın üç əsas funksiyası irəli gəlir:*** tənzimləmə, nəzarət, əməliyyat.

***Tənzimləmə funksiyası*** hazırda ən vacib funksiyadır. Bu funksiya üzv-dövlətlərin məqsədlərini, prinsiplərini, davranış qaydalarını müəyyən edən qərarların qəbulundan ibarətdir. Bu cür qərarlar yalnız mənəvi-siyasi qüvvəyə malikdir, lakin, onların dövlətlərarası münasibətlərə və beynəlxalq hüquqa təsirini qiymətləndirməmək olmaz: istənilən dövlət üçün beynəlxalq təşkilatın qərarına qarşı çıxmaq çətindir.

Təşkilatların qətnamələri beynəlxalq hüquqi normalar yaratmır, lakin həm hüquq yaradıcılığı, həm də hüquq tətbiqedici proseslərinə ciddi təsir göstərir. Beynəlxalq hüququn bir çox prinsip və normaları ilkin olaraq qətnamələrdə formalaşdırılmaşdır. Əməkdaşlığın xüsusi sahələrində (maliyyə, rabitə, nəqliyyat və s.) beynəlxalq hüququn normaları əsasən təşkilatların köməyi ilə yaradılmışdır.

Qətnamələr beynəlxalq problemləri aktullaşdırmaqla vacib funksiya yerinə yetirirlər. Belə ki, qətnamələrdə beynəlxalq problemlər təsdiq edilir, onların beynəlxalq həyatın reallıqlarına münasibətdə konkretləşdirilməsi baş verir: konkret vəziyyətlərə normalar tətbqi etməklə təşkilatlar onların məzmununu açırlar.

***Nəzarət funksiyası*** dövlətlərin davranışının beynəlxalq hüququn normalarına, həmçinin qətnamələrə uyğunluğuna nəzarətin həyata keçirilməsindən ibarətdir. Bu məqsədlə təşkilat müvafiq informasiyanı yığmaq və təhlil etmək, onu müzakirə etmək və öz fikrini qətnamələrdə əks etdirmək hüququna malikdir. Bir çox hallarda dövlətlər müntəzəm olaraq təşkilatın müvafiq sahələrdə norma və aktlarının yerinə yetirilməsi barədə hesabatlar təqdim etməyə borcludurlar.

***Əməliyyat funksiyası*** dedikdə, məqsədlərin təşkilatın özünün vəsaitləri hesabına əldə edilməsi başa düşülür. əksər hallarda təşkilatlar reallığa suveren üzv-dövlətlər vasitəsilə təsir edirlər. Bununla yanaşı, getdikcə dolayı fəaliyyətin də rolu artır. Təşkilat iqtisadi, elmi-texniki və digər yardımlar edir, məsləhət xidmətləri göstərirlər.

***Beynəlxalq təşkilatların üzvləri yalnız suveren dövlətlər ola bilər.*** Onların orqanları beynəlxalq təşkilatların üzvləri ola bilməzlər, baxmayaraq ki, bəzən bu cür təşkilatları hökumətlərarası təşkilatlar adlandırırlar. Dövlətin müəyyən hissəsi də beynəlxalq təşkilatın üzvü ola bilməz. Bütün üzvlər təşkilatın orqanlarının işində bərabər hüquqla iştirak edirlər və onun fəaliyyətinə görə məsuliyyət daşıyırlar.

Ikinci dünya müharibəsindən sonra müstəmləkə ölkələri beynəlxalq təşkilatların üzvlərinə qarşı irəli sürülən tələblərə cavab vermirdilər və təşkilatların fəaliyyətində maraqlı deyildilər. Problemin həlli üçün ***assosiativ üzv*** anlayışından istifadə edilməyə başlandı. Assosiativ üzvlük tam üzvlükdən səsvermədə iştirak və icraedici orqanlara seçilmə hüquqlarının olmaması ilə fərqlənir. Hazırda assosiativ üzvlük yalnız o hallarda istifadə olunur ki, tam üzvlük müvəqqəti və ya daimi səbəblərdən mümkün deyildir.

***Müşahidəçi statusu*** da mövcuddur. O, üzv olmayan dövlətlərə və ya təşkilatın orqanına daxil olmayan üzv dövlətlərə verilir. Isveçrə BMT-nin Baş Assambleyasının bir çox sessiyalarında müşahidəçi qismində təmsil olunmuşdur. BMT-nin əksər üzvləri öz nümayəndələrini müşahidəçi qismində Təhlükəsizlik Şurasının iclaslarına göndərirlər.

Bəzən qeyri-hökumət təşkilatlarına ***məsləhətçi statusu*** verilir ki, bu status da müşahidəçi statusuna yaxındır. Bu cür praktika BMT-nin İqtisadi və Sosial Şurası üçün xarakterikdir.

Üzvlük təşkilatın və ya üzv-dövlətin ləğv edilməsi ilə dayandırılır. Üzvlük hüquqi varislik qaydası ilə keçmir. Rusiya SSRİ-nin yerini hüquqi varis kimi deyil, SSRİ-nin dövlət-davamedicisi kimi tutmuşdur.

***Dövlətin beynəlxalq təşkilata daxil olması üçü əsas motiv*** kimi öz qüvvəsi ilə qarşıda duran siyasi, iqtisadi, sosial, mədəni və s. problemləri həll etmək bacarığının olmaması çıxış edir.

## 8.2. Beynəlxalq iqtisadi münasibətlərin üstmilli tənzimlənməsinin əsas istiqamətləri və alətləri

Əsas inkişaf etmiş ölkələrin kollektiv fəaliyyətlərinin sürətli inkişafı ilk növbədə qlobal maliyyə-iqtisadi böhranlarına yol verməmək istəyi ilə bağlıdır. Aydındır ki, transmilliləşmə və dünya inteqrasiyası proseslərinin gücləndiyi bir şəraitdə hər hansı bir ölkənin təklikdə fəaliyyəti böhranlarının qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması üçün kifayət deyil. Bu isə spontan, partlayış xarakterli dağıdıcı dünya böhranına yol verməmək üçün üstmilli tənzimlənməni zəruri edir.

XX əsrin ikinci yarısında formalaşmış beynəlxalq iqtisadi münasibətlərin üstmilli tənzimlənməsi sistemində onun ***iki əsas istiqaməti***ni dəqiq fərqləndirmək olar:

1) ***beynəlxalq iqtisadi əməkdaşlığın parametrlərinin və şərtlərinin*** (nomenklaturanın həcmi, ticarət, hesablaşma, kredit, investisiya rejimi, iqtisadi və texniki əməkdaşlığın şərtləri və məzmunu, işçi qüvvəsinin miqrasiyası və s.) ***tənzimlənməsi***;
2) ***dünya təsərrüfat əlaqələrinin həyata keçirilməsi qaydalarının bütün iştirakçılar üçün unifikasiya edilməsi*** – beynəlxalq əmtəə, sidmət, lisenziya alqı-satqı müqavilələrinin unifikasiyası, istehsal-texniki əməkdaşlığın, beynəlxalq hesablaşmaların, yük daşımalarının və s.-nin unifikasiyası.

Birinci halda istifadə olunan alətlərə hökumətlərarası (o cümlədən regional) ticarət müqavilələri, ticarət dövriyyəsi və əməkdaşlığın digər formaları haqqında sazişlər aiddir.

Dünya təsərrüfat əlaqələrinin həyata keçirilməsi qaydalarının unifikasiyası alətləri kimi əsasən beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən konvensiyalar, rəhbərliklər və tipik müqavilələr çıxış edir.

***Hökumətlərarası ticarət müqavilələri*** ticarətin ümumi hüquqi rejimini formalaşdırır, gömrük-tarif məsələlərini əks etdirir, fiziki və hüquqi şəxslərin statusunu müəyyən edir, gəmiçiliyin və nəqliyyatın digər formalarının ümumi rejimini formalaşdırır. Bu cür sazişlər kifayət qədər sabit və dayanıqlı iqtisadi və siyasi münasibətlər mövcud olduqda bağlanır və bu münasibətlərin daha da güclənməsinə xidmət edir. Öz xarakterinə görə, ticarət müqavilələri dövlət rəhbərlərinin adından bağlanır və ratifikasiya prosedurundan keçməlidir. Onlar perspektivdə daha konkret hökumətlərarası sazişlərin, məsələn ticarət və iqtisadi əməkdaşlıq haqqında sazişin bağlanması üçün əsas rolunu oynayırlar.

***Ticarət dövriyyəsi haqqında hökumətlərarası saziş*** ticarət dövriyyəsini formalaşdıran əmtəə kontingentlərini müəyyən edir. Bu adətən əmtəə kontingentlərinin formalaşdırılması yolu ilə edilir ki, onun da çərçivəsində əmtəə idxalına və ixracına lisenziyalar verilir. Ticarət dövriyyəsi haqqında sazişlərdə çox zaman ödəmələr haqqında məsələlər də öz əksini tapır. Onlar təkcə ticarət dövriyyəsi üzrə hesablaşma qaydalarını deyil, həm də onlarla əlaqədar olan xərclərin ödənilməsi, nəqliyyat, sığorta, fraxt və s. məsələləri müəyyən edirlər.

***Kliring sazişləri*** xarici ticarətdə meydana gələn qarşılıqlı tələb və öhdəliklərin çıxılması yolu ilə və xarici valyutaya köçürmə etmədən ölkələr arasında qarşılıqlı hesablaşmaların qaydalarını müəyyən edir. Məqsəd ölkələr arasında qarşılıqlı ödəmələri balanslaşdırmaqdan ibarətdir. Hesablaşmanın həyata keçirildiyi valyutanın məzənnəsi adətən tərəddüd etdiyindən bu cür sazişlərə “valyuta əlavəsi” daxil edilir. Bu əlavəyə görə,

kredit hesablarında mövcud olan məbləğ məzənnənin dəyişdiyi halda avtomatik olaraq yenidən hesablanır.

***İqtisadi və texniki əməkdaşlıq haqqında hökumətlərarası saziş*** bir qayda olaraq 3-5 il müddətinə ticarətin genişləndirilməsi və elmtutumlu əmtəələrin istehsalının həcminin artırılması məqsədi ilə bağlanır və konkret layihələrin həyata keçirilməsində hər bir tərəfin öhdəliklərinin siyahısını əks etdirir. Tərəflərdən biri adətən obyektlərin tikintisinə yardım göstərmək, lazımi avadanlığı vermək, ixtisaslı kadrlarla kömək etmək, yerli əhalini öyrətmək öhdəliklərini götürür. Qəbul edən tərəfin öhdəlikləri layihələrin reallaşdırılması üçün zəruri infrastrukturun yaradılmasından, xarici mütəxəssislərlə və layihə çərçivəsində beynəlxalq yük daşımaları ilə əlaqədar xərclərin çəkilməsindən ibarətdir.

***Maliyyə yardımı haqqında hökumətlərarası saziş*** bir ölkənin hökumətinin digər ölkəyə müəyyən məbləğdə uzunmüddətli kreditin (adətən kreditor-ölkənin əmtəələrinin alınması üçün) təqdim edilməsi barədə razılığını nəzərdə tutur. Hökumətlərarası sazişlərin bu forması sənayecə inkişaf etmiş ölkələr və inkişaf etməkdə olan ölkələr arasında olan iqtisadi münasibətlərdə daha geniş yayılıb və adətən sonuncuların daha inkişaf etmiş partnyordan maşın-texniki məhsulların almalarını dəstəkləmək məqsədini daşıyır.

***İnvestisiyaların qorunması haqqında hökumətlərarası saziş*** razılığa gələn tərəflərin qarşılıqlı investisiyalarda münasibətdə ayrı-seçkilik həyata keçirməmək, kapital və gəlirlərin sərbəst axınına icazə vermək öhdəliklərini nəzərdə tutur.

Dünya təsərrüfat münasibətlərinin tənzimlənməsində beynəlxalq dövlət və qeyri-hökumət orqanları və onlar tərəfindən işlənmiş konvensiyalar, qətnamələr, ticarət əlaqələrini tənzimləyən normaların unifikasiyası üzrə rəhbərliklər əhəmiyyətli rol oynayır. Məsələ burasındadır ki, beynəlxalq ticarət əlaqələri əsasən hüquqi və fiziki şəxslər tərəfindən həyata keçirilir ki, onların da fəaliyyəti milli hüquqla tənzimlənir. Bununla yanaşı, müxtəlif dövlətlərin qanunvericiliyi bunu müxtəlif cür həyata keçirir ki, bu da bir dövlərin normalarının digərinki ilə ziddiyyət təşkil etməsi ilə nəticələnir. Milli əsasda yaradılan milli hüquq beynəlxalq ticarətin tələblərinə daha az uyğundur. Bütün bunlar beynəlxalq ticarətin inkişafına maneələr yaradır.

Problemin həllinin əsas vasitəsi ***unifikasiya***dır. Unifikasiya dedikdə daxili dövlət hüququnda ümumi xüsusiyyətlərin, qaydaların, adətlərin müəyyən edilməsi, beynəlxalq müqavilələrin köməyi ilə vahid hüquqi normaların yaradılması və onların tətbiqinin vahid praktikasının təmin edilməsi başa düşülür. Bu normalar milli hüquqlar tərəfindən qəbul

edilir və bu yolla beynəlxalq ticarət əlaqələrinin tənzimlənməsində fərqliliklər aradan qaldırılır. Unifikasiya çoxplanlı prosesdir. O universal və regional səviyyələrdə baş verir, ümumi və sosial xarakterli normaları əhatə edir. Bu prosesdə dövlətlər və təşkilatlar iştirak edirlər.

Hazırda universal səviyyədə unifikasiya ilə çoxsaylı dövlətlərarası və qeyri-hökumət orqanları və təşkilatları məşğul olurlar. Bunların sırasında ən birincilərdən biri kimi, beynəlxalq xüsusi hüquq üzrə Haaqa Konfransını qeyd etmək olar. Bu konfrans ilk dəfə XIX əsrdə çağrılmış, 1955-ci ildən isə daimi əsasda fəaliyyət göstərməyə başlamışdır. Onun əsas fəaliyyət sferası beynəlxalq ticarət sahəsində hüquq kolliziyalarını həll edən normalar da daxil olmaqla kolliziya hüququnun unifikasiyasıdır. Belə ki, 1955-ci ildə beynəlxalq əmtəə alqı-satqısına tətbiq edilən hüquq haqqında Haaqa Konvensiyası qəbul edildi. 1986-cı ildə onu beynəlxalq əmtəə alqı-satqı müqavilələrinə tətbiq edilən hüquq haqqında Konvensiya (hələ qüvvəyə minməyib) əvəz etdi.

1926-cı ildən etibarən Romada xüsusi hüququn unifikasiyası sahəsində hökumətlərarası təşkilat – Xüsusi Hüququn Unifikasiyası üzrə Beynəlxalq İnstitut (YUNİDRUA) çalışmaqdadır. Haaqa Konfransından fərqli olaraq, İnstitut maddi xüsusi hüququn müxtəlif sahələrinin, o cümlədən ticarətə aid olan sahələrinin unifikasiyası ilə məşğul olur.

1966-cı ildə BMT-nin beynəlxalq ticarət hüququ üzrə Komissiyası (YUNSİTRAL) yaradıldı. Onun yaradılmasında məqsəd beynəlxalq ticarət qaydalarının unifikasiyası və adətlərin kodifikasiyasının razılaşdırılmış şəkildə həyata keçirilməsi, müvafiq beynəlxalq konvensiyaların hazırlanmasıdır.

***Beynəlxalq konvensiyalar*** beynəlxalq müqavilələrin növlərindən biri olmaqla adətən müəyyən sahələrdə dövlətlərin qarşılıqlı hüquqlarını və öhdəliklərini müəyyən edir. Beynəlxalq konvensiyalar adətən beynəlxalq təşkilatların çərçivəsində qəbul edilir.

Konvensiyaları beynəlxalq iqtisadi münasibətlərin formaları üzrə sistemləşdirməklə onlardan ən əsaslarını göstərək.

***Əmtəələrlə beynəlxalq ticarət qaydalarının unifikasiyası üçün daha əhəmiyyətli konvensiyalar*** aşağıdakılardır:

- beynəlxalq əmtəə alqı-satqısı üzrə vahid qanun haqqında Haaqa Konvensiyası (1964-cü il);
- beynəlxalq əmtəə alqı-satqısında iddia müddətliyi haqqında Konvensiya (1974-cü il);

- YUNSİTRAL-ın Arbitraj reqlamenti (1976-cı il);
- beynəlxalq əmtəə alqı-satqı müqavilələri haqqında BMT-nin Vyana Konvensiyası (1980-ci il);
- beynəlxalq əmtəə alqı-satqısında nümayəndəliklər haqqında Cenevrə Konvensiyası (1983-cü il);
- beynəlxalq ticarət arbitrajı haqqında tipik qanun (1985-ci il);
- beynəlxalq əmtəə alqı-satqı müqavilələrinə tətbiq edilən hüquq haqqında Konvensiya (1986-cı il);
- alqı-satqı şərtlərini və müqavilələrini müəyyən edən beynəlxalq kommersiya terminləri (INCOTERMS, 2000-ci il).

***Beynəlxalq istehsal və elmi-texniki əməkdaşlıq sahəsində aşağıdakıları fərqləndirmək olar:***

- sənaye mülkiyyətinin qorunması haqqında Paris Konvensiyası (1883-cü il, sonuncu dəfə 1979-cu ildə nəzərdən keçirilib);
- nişanların beynəlxalq qeydiyyatı haqqında Madrid sazişi (1891-ci il, 1989-cu ildə Madrid sazişinə əlavə olaraq Protokol imzalanıb);
- beynəlxalq maliyyə lizinqi haqqında Ottava Konvensiyası (1988-ci il);
- beynəlxalq faktorinq haqqında Ottava Konvensiyası (1988-ci il);
- daşınan avadanlıq üzrə beynəlxalq əmlak hüququ haqqında Keyptaun Konvensiyası (2001-ci il).

Ölkələr arasında ***valyuta-maliyyə və kredit münasibətləri*** aşağıdakı sənədlərlə unifikasiya edilib:

- veksellərə aid hüququn unifikasiyası üzrə Cenevrə Konvensiyası (1930-cu il);
- dövlətlər və digər dövlətlərin vətəndaşları arasında investisiya mübahisələrinin tənzimlənməsi üzrə Vaşinqton Konvensiyası (1965-ci il);
- inkasso üzrə unifikasiya edilmiş qaydalar (1978-ci il);
- sənədli akkreditivlər üçün unifikasiya edilmiş qayda və adətlər (1983-cü il redaktəsi);
- Çoxtərəfli İnvestisiyalar üzrə Zəmanət Agentliyinin təsis edilməsi üzrə Konvensiya (1985-ci il);
- beynəlxalq köçürmə veksellləri və beynəlxalq adi çeklər haqqında BMT Konvensiyası (1988-ci il).

***Işçi qüvvəsinin beynəlxalq miqrasiyası prosesi*** BƏT tərəfindən qəbul edilən konvensiyalarla tənzimlənir.

Beynəlxalq ticarət və onun inkişafı iri həcmli yük axınları və nəqliyyatın müxtəlif növlərindən istifadə ilə də bağlıdır. ***Beynəlxalq yük daşımaları qaydalarının unifikasiyası*** üzrə dünya ictimaiyyəti tərəfindən əhəmiyyətli işlər görülmüşdür. Bu sahəyə aid sənədlər arasında aşağıdakıları qeyd etmək olar:

- konosamentlərə aid bəzi qaydaların unifikasiyası üzrə beynəlxalq konvensiya (1921-ci il);
- beynəlxalq aviadaşımalar aid bəzi qaydaların unifikasiyası üzrə varşava Konvensiyası (1929-cu il);
- yüklərin beynəlxalq yol daşıması üzrə müqavilə haqqında konvensiya (1956-cı il);
- yüklərin dəmir yolu il daşınması haqqında beynəlxalq konvensiya (1961-ci il);
- konosamentlər haqqında Haaqa qaydalarına yenidən baxılması barədə Brüssel müqaviləsi (1968-ci il);
- qarışıq nəqliyyat sənədi üçün unifikasiya edilmiş qaydalar (1975-ci il);
- yüklərin dəniz daşınması haqqında BMT Konvensiyası (Hamburq qaydaları, 1978-ci il);
- yüklərin və sərnişinlərin daşınması üzrə dəmir yollarının sazişi (1980-i il);
- Yük Ekspeditorları İnstitutunun standart ticarət şərtləri (1984-cü il).

Beynəlxalq konvensiyaların dünya təsərrüfat əlaqələri qaydalarının unifikasiya edilməsində olan rolunu beynəlxalq əmtəə alqı-satqı müqavilələri haqqında Vyana Konvensiyası nümunəsində görmək olar. YUNSİTRAL tərəfindən işlənən konvensiya beynəlxalq alqı-satqı sazişlərinin şərtlərinin unifikasiyası məqsədini daşıyırdı. Vyana Konvensiyası 4 hissədən və 101 maddədən ibarətdir:

I hissə. “Tətbiq sferası və ümumi müddəalar”.

II hissə. “Müqavilənin bağlanması”.

III hissə. “Əmtəənin alqı-satqısı”.

IV hissə. “Yekun müddəalar”.

Beynəlxalq əmtəə alqı-satqı müqavilələri haqqında Vyana Konvensiyasının əhəmiyyəti aşağıdakılardan ibarətdir:

- beynəlxalq əmtəə alqı-satqı müqavilələrinin bağlanması və istifadə edilməsinin vahid tənzimlənməsini əks etdirir və milli qanunvericiliklərdə olan fərqlilikləri əsasən aradan qaldırmağa imkan verir;
- kommersiya danışıqlarının sürətlənməsinə, yüngülləşməsinə və ucuzlaşmasına imkan verir, çünki, xarici qanunvericiliyin və onun tətbiq praktikasının öyrənilməsinə ehtiyac aradan qalxır;
- müqavilə tərəflərinin hüquq və öhdəliklərini birmənalı şəkiləd başa düşmələri üçün şərait yaradır;
- daha güclü partnyorun zəif partnyora onun üçün faydalı müqavilə şərtlərini qəbul etdirməsi imkanlarını aradan qaldırır ki, bu da beynəlxalq ticarətdə qeyri-bərabər ayrı-seçkilik münasibətlərinin ləğv edilməsi üçün mühüm əhəmiyyət kəsb edir;
- alıcı və satıcının müqavilə üzrə əsas öhdəliklərini müəyyən edir;
- konvensiyada iştirak etməyən dövlətlərə aid tərəflər arasında mübahisələr yarandığı halda müqavilənin subyektləri (müqavilə tərəfləri) və obyektləri (müqavilənin predmeti) üzrə münasibətləri tənzimləyir;
- aid olmadığı alqı-satqı müqaviləsi obyektlərinin siyahısını müəyyən edir;
- konvensiyanın tətbiq edilmədiyi alqı-satqı müqavilələrinin əlamətləri müəyyən edilir.

Konvensiyanın xarakteri normativdir, yəni onda əks olunan müddəalar hüquq normaları hesab edilir, lakin onlar dispozitiv xarakter kəsb edirlər. Bu o deməkdir ki, tərəflər müqaviləni bağlayarkən Konvensiyanın istənilən müddəasına əməl etməyə bilərlər.

Beynəlxalq iqtisadi əlaqə qaydalarının unifikasiyasında müxtəlif beynəlxalq müqavilələrin hazırlanması üzrə rəhbərliklər xüsusi yer tutur. Bu sənədlər adətən BMT-nin Avropa İqtisadi Komissiyası tərəfindən hazırlanır.

***Müqavilələrin hazırlanması üzrə rəhbərlik*** xarici iqtisadi əməliyyatların müxtəlif növləri üzrə müqavilələrin mümkün bağlanma formalarını, onların strukturunu və əsas maddələrinin məzmununu əks etdirir. Nümunə kimi aşağıdakıları göstərmək olar:

- konsultativ injinirinq (bununla əlaqədar texniki dəstək aspektləri də aid olmaqla) üzrə beynəlxalq müqavilələrin hazırlanması üzrə rəhbərlik (BMT AİK, 1979-cu il);
- sənaye əməkdaşlığı üzrə beynəlxalq müqavilələrin hazırlanması üzrə rəhbərlik (BMT AİK, 1976-cı il);
- konkret layihəni həyata keçirmək üçün bir araya gəlmiş tərəflər arasında beynəlxalq müqavilələri hazırlanması üzrə rəhbərlik (BMT AİK, 1979-cu il);

- sənaye və digər qurğuların maddi-texniki xidməti, təmiri və istismarı ilə əlaqədar xidmətlər üzrə beynəlxalq müqavilələrin hazırlanması üzrə rəhbərlik (BMT AİK, 1987-ci il).

***Tipik müqavilə*** ticarət praktikası və ya adətləri nəzərə alınmaqla yazılı şəkildə hazırlanmış nümunə müqaviləsi və ya unifikasya edilmiş şərtlər toplusudur. Bu müqavilə razılığa gələn müqavilə subyektləri tərəfindən konkret sazişin tələbləri ilə razılaşdırıldıqdan sonra qəbul edilirlər.

Tipik müqavilə beynəlxalq alqı-satqı müqaviləsi kimi o halda istifadə olunur ki, tərəflər yalnız razılaşdırma tələb edilən maddələri (tərəflərin adları, kəmiyyət, keyfiyyət, qiymət, müddət, sazişin yeri) doldurur və imzalayırlar.

Maddi-əşyavi formada əmtəələrin alqı-satqısı, lisenziyaların verilməsi, injinirinq xidmətlərinin göstərilməsi, icarə beynəlxalq müqavilələri üzrə tipik müqavilələr BMT-nin Avropa İqtisadi komissiyası, sahibkarların sahəvi birlikləri, iri firmalar tərəfindən hazırlanmışdır.

Qeyd etməliyik ki, yuxarıda sadalananlar üstmilli tənzimlənmənin taktiki alətləridir. Onun strateji alətlərinə isə aşağıdakılar daxildir:

- Beynəlxalq Valyuta Fondu;
- Dünya Bankı Qrupu;
- Ümumdünya Ticarət Təşkilatı;
- Avropa Birliyinin siyasi, üstdövlət inzibati və və maliyyə-iqtisadi strukturları;
- Beynəlxalq koordinasiya təşkilatları (London və Paris bankları, Beynəlxalq Hesablaşmalar Bankı);
- London, Nyu-York və Tokio mərkəzlərinin aparıcı rol oynadıqları beynəlxalq maliyyə mərkəzləri;
- əmtəə, xidmət, kapital hərəkətinin ümumdünya şəbəkələrinə nəzarət edən transmilli şirkətləri və transmilli banklar;
- BMT-nin maliyyə-iqtisadi və sosial qurumları.

Qlobal tənzimlənmənin əsas strateji alətləri rolunu BVF, DB və ÜTT oynayırlar. Biz onların qlobal fəaliyyətləri barədə əvvəlki bölmələrdə müəyyən qədər məlumat vermişik. Bunu xatırlatmaq istərdik ki, son 20 ildə BVF-nin fəaliyyəti bir neçə aspektdə xüsusi əhəmiyyət kəsb edib:

- böhran vəziyyətində olan inkişaf etməkdə olan ölkələrə yardım göstərilməsi;

- bazar dəyişiklikləri (islahatları) proqramlarının maliyyələşdirilməsi;
- böhranların qarşısının alınması üçün proqram, tədbir, təkliflər və s.-nin hazırlanması;
- dünyanın maliyəə-iqtisadi inkişafının qeyri-sabitliyinin neytrallaşdırılnması cəhdləri ilə əlaqədar inkişaf etmiş ölkələrin səylərinin koordinasiyası.

Dünyada baş verən sürətli inkişaf prosesləri, güclənən inteqrasiya prosesləri, keçmiş sosialist ölkələrinin yeni sistemə transformasiyası, qloballaşma prosesinin birmənalı olmayan nəticələri yeni dünya tənzimləmə sisteminin yaradılmasını zəruri edir. Formalaşmış yeni şəraitdə keçmiş SSRİ respublikalarını, həmçinin Mərkəzi və Şərqi Avropa ölkələrini dünya siyasi və iqtisadi sisteminə cəlb etmək üçün inkişaf etmiş ölkələr ikinci dünya müharibəsindən sonrakı dövrdə yaradılmış təşkilatlar kimi qurumları təsis etmək iqtidarında olmadılar. Qloballaşmanın iqtisadi, siyasi və digər problemlərinin həll edilməsi iri dövlətlərdən, xüsusilə ABŞ, Avropa Birliyi, Kanada, Yaponiya, Rusiya, Çin, Hindistan, Braziliya və digər ölkələrdən əməkdaşlığın inkişaf üzrə real səylərin göstərilməsini tələb edir. Mövcud təşkilatları modernləşdirmək və ya yeni qurumlar yaradılması zəruridir. Bu təşkilatlar qlobal perspektivlərə və üstmilli xarakterli qərarlar qəbul etmək üçün səlahiyyətlərə malik olmalıdırlar. Onlar bu qərarların yerinə yetirilməsinə səmərəli nəzarət mexanizmini formalaşdırmalı və eyni zamanda öz fəaliyyətlərinin şəffaflığına və hesabatlılığına əməl etməlidirlər.

Yuxarıda deyilənlər göstərir ki, dünya təsərrüfat əlaqələrinin beynəlxalq tənzimlənməsi müxtəlif səviyyələrdə (dünya, regional, ölkələrarası, firmalararası) həyata keçirilir, beynəlxalq iqtisadi münasibətlərin bütün formalarını əhatə edir və özündə müxtəlif alətləri əks etdirir. Beləliklə. unifikasiya və kodifikasiya üzrə həyata keçirilən işlər hüquq yaradıcılığı prosesinin bir hissəsi olmaqla beynəlxalq iqtisadi hüququn proqressiv inkişafının bir formasıdır.

### 8.3. Birləşmiş Millətlər Təşkilatının yaranma tarixi və obyektiv zəruriliyi

Birləşmiş Millətlər Təşkilatı (BMT) özünün müasir görünüşünü uzunmüddətli təkamül yolu nəticəsində əldə etmişdir. BMT sisteminin ilk elementləri hələ XIX əsrdə meydana gəlmişdir. XIX əsrin ortalarında ilk beynəlxalq hökumətlərarası təşkilatlar yaradılmışdır. Bu təşkilatların yaranması əsasən iki səbəbdən irəli gəlmişdir. Birincisi, burjua-demokratik inqilablar nəticəsində yaranan suveren dövlətlər millü müstəqilliyə can atırdılar. Ikincisi, elmi-texniki inqilabın nailiyyətləri dövlətlərin qarşılıqlı asılılığına gətirib çıxarırdı.

Məlumdur ki, xalqın və dövlətin suverenliyinin dönməzliyi şüarı bir çox Avropa ölkələrində baş verən inqilablar zamanı səslənən əsas şüarlardan biri idi. Yeni formalaşan təbəqə özünün hökmranlığını güclü, müstəqil dövlət vasitəsilə gücləndirməyə çalışırdılar. Eyni zamanda, bazar münasibətlərinin inkişafı elmi-texniki tərəqqinin sürətlənməsini stimullaşdırırdı. Bu isə Avropanın bütün inkişaf etmiş ölkələrində inteqrasiya proseslərinin yaranmasına və dövlətlər arasında hərtərəfli əlaqələrin formalaşması ilə nəticələnirdi. Suveren dövlət çərçivəsində inkişaf etmək arzusu və bunu digər müstəqil dövlətlərlə geniş əməkdaşlıq etmədən həyata keçirməyin qeyri-mümkünlüyü dövlətlərarası qarşılıqlı əlaqələrin yeni formasının, yəni beynəlxalq təşkilatların yaranmasına səbəb oldu.

Ilk əvvəllər beynəlxalq təşkilatlar çərçivəsində dövlətlərarası əməkdaşlığın əsas məqsədi inteqrasiya prosesləri üzərində nəzarəti təmin etmək idi. Ilk mərhələdə hökumətlərarası təşkilatlar daha çox siyasi funksiyanı deyil, texniki-təşkilati funksiyanı həyata keçirirdilər. Onlar yeni üzv-dövlətlərin cəlb edilməsi yolu ilə inteqrasiya meyllərini inkişaf etdirməli idilər. Əməkdaşlığın əsas sahələri isə rabitə, nəqliyyat və müstəmləkələrlə münasibətlər idi.

Birinci beynəlxalq təşkilatın yaranması tarixi barədə məsələ hələ də mübahisəli olaraq qalır. Beynəlxalq hüquqşünaslar belə hesab edirlər ki, ilk beynəlxalq təşkilat 1815-ci ildə yaradılmış Reyndə gəmiçilik üzrə Mərkəzi Komissiyadır. Bununla yanaşı, XIX əsrdə inzibati birliklər da yaradılırdı. Məhz inzibati birliklər hökumətlərarası təşkilatların inkişaf etməsi üçün əsas münasib forma rolunu oynamışlar. Əsas məqsədləri dövlətlərin xüsusi sahələrdə əməkdaşlığını təmin etmək olan inzibati birliklər bütün XIX əsr ərzində hökumətlərarası təşkilatların inkişafına təkan vermişdir.

XX əsrin əvvəli bir çox dövlətlərin sakit inkişaf yolun son qoydu. Kapitalizmin inkişafına xas olan ziddiyyətlər dünya müharibəsi ilə nəticələndi. Birinci dünya müharibəsi nəinki beynəlxalq təşkilatların inkişafına əngəl törətdi, həmçinin onların bir çoxunun buraxılmasına gətirib çıxardı. Eyni zamanda, dünya müharibələrinin bütün bəşər sivilizasiyası üçün təhlükəsinin dərk edilməsi müharibələrin qarşısının alınması üçün siyasi istiqamətli beynəlxalq təşkilatların yaradılması layihələrinin yaranmasına ciddi təsir göstərdi.

Müharibələrin qarşısının alınması və sülhün dəstəklənməsi ilə məşğul olacaq qlobal hökumətlərarası təşkilatın yaradılması ideyası əslində bəşəriyyəti çoxdan narahat edirdi. Məhz bu ideya 1919-cu ildə Millətlər Liqasının yaradılması ilə nəticələndi. Lakin, təəssüf ki, bu təşkilat beynəlxalq siyasi əməkdaşlığın səmərəli aləti ola bilmədi.

Birinci dünya müharibəsi və ikinci dünya müharibəsi arasında olan dövrdə beynəlxalq sülh və təhlükəsizlik problemlərinin işlənməsi ümumilkdə çox zəif həyata keçirilirdi. Ikinci dünya müharibəsi öz masştabına və buna qədər bəşər tarixində görünməmiş itkilərə görə, sülhün və təhlükəsizliyin təşkili üzrə hökumətlər və ictimaiyyət tərəfindən irəli sürülən təşəbbüslərə güclü təkan verdi.

Hökumətlər səviyyəsində beynəlxalq təhlükəszilik sahəsində təşkilatın yaradılması məsələsi müharibənin elə ilk günlərindən gündəmə gəldi. Düzdür, bəzi tarixçilər BMT-nin yaradılması istiqamətində ilk addım kimi 1941-ci ilin 12 iyununda imzalanmış Müttəfiqlik Bəyannaməsini əsas götürürlər. Lakin, əksəriyyətin fikrincə bu istiqamətdə ilk real addım 14 avqust 1941-ci ildə atılmışdır. Bu tarixdə ABŞ prezidenti Franklin Delano Ruzvelt və Birləşmiş Krallığın baş naziri Uinston Çörçill Atlantika Xartiyası adlanan sənədi imzalamışlar. Bu sənəddə sülhün və təhlükəsizliyin dəstəklənməsində beynəlxalq əməkdaşlığın prinsipləri öz əksini tapmışdır. 1942-ci il yanvarın 1-də isə “ox” ölkələrinə qarşı müharibə aparan 26 müttəfiq dövlət Birləşmiş Millətlər Bəyannaməsini imzalayaraq, Atlantika Xartiyasına öz dəstəklərini verdilər. ABŞ prezidenti Franklin Ruzvelt tərəfindən təklif olunan “Birləşmiş Millətlər” ifadəsi rəsmi olaraq ilk dəfə bu sənəddə istifadə edilmişdir.

BMT-nin yaranmasında növbəti mərhələ isə isə 1943-cü ilin oktyabr-dekabr aylarında keçirilmiş Moskva və Tehran konfransları oynamışlar. 30 oktyabr 1943-cü ildə Moskvada SSRİ, ABŞ, Birləmiş Krallıq və Çin nümayəndələrinin imzaladıqları Bəyannamədə sülhün və təhlükəsizliyin dəstəklənməsi üçün tez bir zamanda beynəlxalq

təşkilatın yaradılması çağırışı vardı. Bu məqsəd ABŞ, SSRİ və Birləşmiş Krallıq rəhbərlərinin 1 dekabr 1943-cü ildə Tehranda keçirilən görüşündə bir daha təsdiqlənmişdi.

BMT-nin yaradılmasında əsas və vacib mərhələlərdən biri kimi kimi tarixçilər 1944-cü ildə Dumbarton-Oksda (Vaşinqtonda yerləşən saray) keçirilən konfransı göstərirlər. 1944-cü ilin 21 sentyabrından 7 oktyabrına qədər keçirilən bu konfransda BMT-nin ilk cizgiləri müəyyən edilmiş, gələcək təşkilatın fəaliyyətinin əsas prinsipləri və mexanizmi razılaşdırılmış, ABŞ, Birləşmiş Krallıq, SSRİ və Çin ümumdünya təşkilatının məqsədləri, strukturu və funksiyaları üzrə ortaq məxrəcə gəlmişdilər.

1945-ci ilin 11 fevralında keçirilən Yalta konfransı zamanı üç ölkənin – SSRİ, ABŞ və Böyük Britaniyanın rəhbərləri Dumbarton-Oks konfransı zamanı təklif edilmiş sənədlər paketini müzakirə edərək ora bəzi müddəaları əlavə etmiş və 1945-ci ilin aprelində ABŞ-da Birləşmiş Millətlər Konfransının çağrılması barədə qərar qəbul etmişdilər.

Bu qərar 25 aprel-25 iyun 1945-ci il tarixində San-Fransisko konfransının keçirilməsi ilə reallaşdı. 25 aprel 1945-ci ildə 50 ölkədən olan nümayəndə heyəti beynəlxalq təşkilatın yaradılmasını müzakirə etmək məqsədilə Birləşmiş Millətlər Konfransına toplaşdılar. Nümayəndə heyətləri 111 müddəadan ibarət Nizamnamə hazırladılar və bu Nizamnamə 25 iyun 1945-ci ildə yekdilliklə qəbul edildi. 24 oktyabr 1945-ci ildə ratifikasiya edilmiş qramotaların Təhlükəsizlik Şurasının 5 daimi üzvü və əksər ölkələr tərəfindən təqdim edilməsindən sonra BMT Nizamnaməsi qüvvəyə mindi. Həmin vaxtdan etibarən beynəlxalq təqvimdə 24 oktyabr BMT Günü adlanır.

BMT-nin bir təşkilat kimi əsas xüsusiyyəti sülh və təhlükəsizlik məsələlərinə istiqamətlərində əks olunan siyasi xarakteri və dövlətlərarası əməkdaşlığın bütün sferalarında kifayət qədər geniş səlahiyyətlərə malik olmasıdır. Bu xüsusiyyətlər əvvəlki hökumətlərarası təşkilatların heç birinə xas deyildi.

Beləliklə, **Birləşmiş Millətlər Təşkilatı** sülhün və beynəlxalq təhlükəsizliyin, həmçinin dövlətlər arasında əməkdaşlığın dəstəklənməsi məqsədilə yaradılmış universal beynəlxalq təşkilatdır.

## 8.4. Birləşmiş Millətlər Təşkilatının məqsədləri, fəaliyyət prinsipləri və strukturu, onun baş və köməkçi orqanları

BMT-nin fəaliyyəti onun Nizamnaməsi əsasında tənzimlənir. BMT-nin Nizamnaməsi bütün dövlətlər üçün məcburidir və onun Preambulasında deyilir:

“**Biz, Birləşmiş Millətlərin xalqları,**

*gələn nəsilləri, həyatımızda iki dəfə bəşəriyyətə sözlə deyilə bilməyən bəlalar gətirmiş müharibənin müsibətlərindən xilas etmək və*

*əsas insan hüquqlarına, insan şəxsiyyətinin ləyaqət və dəyərinə, kişi və qadınların, böyük və kiçik millətlərin hüquq bərabərliyinə inamı yenidən təsdiq etmək və*

*ədalətin və müqavilələrdən və beynəlxalq hüququn digər mənbələrindən irəli gələn öhdəliklərə hörmətin bərqərar ola bildiyi şərait yaratmaq və*

*sosial tərəqqiyə və daha artıq azadlıq şəraitində yaşayış səviyyəsinin daha da yaxşılaşdırılmasına yardım göstərmək*

**və bu məqsədlərlə**

*mehriban qonşular kimi dözümlülük nümayiş etdirmək və birlikdə, bir-birimizlə dinc yaşamaq və*

*beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq üçün öz gücümüzü birləşdirmək və*

*prinsiplər qəbul etmək və metodlar müəyyənləşdirməklə, silahlı qüvvələrin ümumi mənafedən başqa ayrı bir halda tətbiq olunmamasını təmin etmək və*

*bütün xalqların iqtisadi və sosial tərəqqisinə yardım göstərmək üçün beynəlxalq mexanizmdən istifadə etmək əzmində olaraq,*

**bu məqsədlərə nail olmaq üçün öz səylərimizi birləşdirmək qərarına gəldik**”.

BMT-nin məqsəd və prinsipləri Nizamnamənin birinci fəslində, müvafiq olaraq, birinci və ikinci maddələrdə öz əksini tapmışdır. ***BMT-nin məqsədləri kimi aşağıdakılar müəyyən edilmişdir***:

1. Beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq və bu məqsədlə: sülhə təhlükənin qarşısını almaq və aradan qaldırmaq üçün və təcavüz aktlarını və digər sülhün pozulması hallarını yatırtmaq üçün səmərəli kollektiv tədbirlər görmək və sülhün pozulmasına gətirib çıxara bilən beynəlxalq mübahisə və situasiyaların dinc vasitələrlə və ədalət və beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq nizamlanmasına və yaxud həll olunmasına müvəffəq olmaq;

2. Millətlər arasında, xalqların hüquq bərabərliyi və özünümüəyyənetmə prinsipinə hörmət əsasında dostluq münasibətləri inkişaf etdirmək, universal sülhün möhkəmləndirilməsi üçün digər müvafiq tədbirlər görmək;
3. İqtisadi, sosial, mədəni və ya humanitar xarakterli beynəlxalq problemlərin həll edilməsində və irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hörmətin dəstəklənməsində və həvəsləndirilməsində beynəlxalq əməkdaşlığa nail olmaq və
4. Bu ümumi məqsədlərə çatmaq üçün millətlərin hərəkətlərini uzlaşdırmaq üçün mərkəz rolunu oynamaq.

Nizamnamədə göstərilir ki, 1-ci maddədə bəyan edilmiş məqsədlərə nail olmaq üçün ***Təşkilat və onun üzvləri aşağıdakı prinsiplərə uyğun olaraq hərəkət edirlər***:

- təşkilatın bütün üzvlərinin suveren bərabərliyi;
- üzvlərin Nizamnaməyə uyğun olaraq üzərlərinə götürdükləri öhdəlikləri vicdanla yerinə yetirmələri;
- beynəlxalq sülh, təhlükəsizlik və ədalətin təhlükəyə məruz qalmaması üçün beynəlxalq mübahisələrin dinc vasitələrlə həll edilməsi;
- hər hansı bir dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı və yaxud BMT-nin məqsədləri ilə bir araya sığmayan hər hansı bir şəkildə güclə hədələməkdən və gücün tətbiqindən çəkinmək;
- üzvlərin Nizamnaməyə uyğun olaraq görülən istənilən tədbirə hər cür yardım göstərmələri;
- BMT tərəfindən əleyhinə preventiv və ya məcburiyyət tədbiri görülən istənilən dövlətə yardım göstərməkdən çəkinmək;
- BMT-nin üzvü olmayan dövlətlərin beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması üçün zəruri olan hallarda bu prinsiplərə uyğun hərəkət etmələrinin təmin edilməsi;
- BMT tərəfindən dövlətin əsas etibarilə daxili yurisdiksiyasında olan məsələlərə müdaxilə edilməməsi.

BMT-nin ilkin üzvləri San-Fransiskoda Beynəlxalq Təşkilatın yaradılması üzrə Birləşmiş Millətlərin Konfransında iştirak etmiş və yaxud bundan qabaq Birləşmiş Millətlərin 1 yanvar 1942-ci il tarixli Bəyannaməsini imzalamış və onu ratifikasiya etmiş ölkələrdir (Nizamnamənin 3-cü maddəsi). BMT-yə üzvlük Nizamnamədə əks olunmuş

öhdəlikləri qəbul edən və Təşkilatın mühakiməsinə görə, bu öhdəlikləri yerinə yetirməyə qabil və hazır olan bütün digər sülhsevər dövlətlərə açıqdır. İstənilən belə bir dövlətin Birləşmiş Millətlərin üzvlüyünə qəbulu Təhlükəsizlik Şurasının təqdimatı əsasında Baş Məclsisin qərarı ilə həyata keçirilir (4-cü maddə).

Hazırda BMT üzvlərinin sayı 191-ə bərabərdir. 1945-2002-ci illərdə BMT üzvlərinin sayının artım dinamikası Diaqram 12.1-də öz əksini tapmışdır.

**Diaqram 12.1.**

**1945-2002-ci illərdə BMT üzvlərinin sayının artım dinamikası**




**Mənbə: BMT-nin rəsmi internet saytı – www.un.org**

BMT üzvünün əleyhinə Təhlükəsizlik Şurası tərəfindən preventiv və ya məcburiyyət tədbiri görülmüşsə, Baş Məclis, Təhlükəsizlik Şurasının təqdimatı əsasında onun Təşkilatın üzvü kimi malik olduğu öz hüquq və imtiyazlarını həyata keçirməsini müvəqqəti dayandıra bilər. Bu hüquq və imtiyazların həyata keçirilməsi Təhlükəsizlik Şurası tərəfindən bərpa oluna bilər (maddə 5). Nizamnamədə təsbit olunmuş prinsipləri sistematik qaydada pozan BMT üzvü Təhlükəsizlik Şurasının təqdimatı əsasında Baş Məclis tərəfindən Təşkilatdan çıxarıla bilər (maddə 6).

***BMT-nin əsas orqanları*** Nizamnamənin III fəslində, maddə 7-də göstərildiyi kimi, Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir. Beynəlxalq Məhkəmədən başqa bütün digər oqranlar BMT-nin Nyu-Yorkdakı əsas binalarında yerləşirlər. Beynəlxalq Məhkəmə isə Haaqada (Niderland) yerləşir.

BMT Nizamnaməsinə uyğun olaraq, ***Baş Məclis*** BMT-nin fəaliyyətində əhəmiyyətli rol oynayır. O, əsas beynəlxalq sənədlərin hazırlanmasında və beynəlxalq hüququn prinsip və normalarının kodifikasiyasında yaxından iştirak edir.

Nizamnamənin IV fəsli bütövlüklə Baş Məclisə həsr edilmişdir. Maddə 9-a görə, Baş Məclis BMT-nin bütün üzvlərindən ibarətdir və hər bir üzvün Baş Məclisdə beş nəfərdən artıq nümayəndəsi ola bilməz.

Bu orqanın funksiya və səlahiyyətləri Nizamnamənin 10-17-ci maddələrində öz əksini tapmışdır.

Maddə 10-a görə, Baş Məclis Nizamnamənin tətbiq dairəsində olan və yaxud Nizamnamə ilə nəzərdə tutulmuş orqanlardan hər hansı birinin səlahiyyət və funksiyalarına aid olan istənilən məsələ və ya işləri müzakirə edə bilər. 12-ci maddə ilə (bu maddəyə görə, Təhlükəsizlik Şurası, hər hansı bir mübahisə və ya situasiya ilə bağlı Nizamnamənin onun üçün nəzərdə tutduğu funksiyaları yerinə yetirdiyi zaman, Baş Məclis, Təhlükəsizlik Şurası ondan bu barədə xahiş etmədiyi halda, həmin mübahisə və ya situasiya ilə bağlı heç bir tövsiyə verə bilməz) nəzərdə tutulmuş hallardan başqa, BMT üzvlərinə və ya Təhlükəsizlik Şurasına və yaxud onların hər ikisinə hər hansı bu cür məsələ və ya işlər üzrə tövsiyələr edə bilər.

BMT-nin strukturu Sxem 12.1.-də öz əksini tapmışdır.

# BMT–NIN ƏSAS ORQANLARI

## Beynəlxalq Məhkəmə

## Təhlükəsizlik Şurası

- Hərbi Qərargah Komitəsi
- Daimi komitələr və xüsusi orqanlar
- Keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Tribunal
- Ruanda üzrə Beynəlxalq Tribunal
- Müşahidə, nəzarət və təftiş üzrə Komissiya (İraq)
- BMT-nin Kompensasiya Komissiyası
- Sülhün dəstəklənməsi üzrə BMT əməliyyatları və missiyalar

## Baş Məclis

- Əsas komitələr
- Digər sessiya komitələri
- Daimi komitələr və xüsusi orqanlar
- Digər köməkçi orqanlar

**PROQRMLAR və FONDLAR**

**YUNKTAD**
BMT-nin Ticarət və İnkişaf Konfransı

**BMTİP**
BMT-nin İnkişaf Proqramı

BMT-nin qaçqınların işi üzrə Ali Komissarının İdarəsi

**BTM**
Beynəlxalq Ticarət Mərkəzi (YUNKTAD/ÜTT)

**YUNİFEM**
Qadınların inkişafı üzrə BMT Fondu

**YUNİSEF**
BMT-in Uşaq Fondu

Narkotiklərə Beynəlxalq Nəzarət üzrə BMT Proqramı

BMT könüllüləri

Dünya Ərzaq Proqramı

Ətraf mühit üzrə BMT Proqramı

BMT-nin kapital inkişafı Fondu

Fələstin qaçqınlara yardım üzrə BMT-nin Yaxın Şərq Agentliyi**

Əhali məntəqələri üzrə BMT Proqramı (BMT-Habitat)

Əhali yerləşməsi sahəsində BMT Fondu

**BMT-nin DİGƏR TƏŞKİLATLARI**

Insah Haqları üzrə Ali Komissarın İdarəsi

Layihələrə xidmət üzrə BMT İdarəsi

BMT Universiteti

BMT Personalının Kolleci

**TƏHSİL və ELMİ-TƏDQİQAT İNSTİTUTLARI**

Qadınların vəziyyətinin yaxşılaşdırılması üzrə beynəlxalq təhsil və elmi-tədqiqat institutu

BMT-nin təhsil və elmi-tədqiqat institutu

Tərki-silah problemlərinin tədqiqatı üzrə BMT institutu

Cinayətkarlıq və hüquqi məsələlər üzrə BMT-nin regionlararası elmi-tədqiqat institutu

BMT nəzdində sosial inkişaf üzrə elmi-tədqiqat institutu

## İqtisadi və Sosial Şura

**Funksional Komissiyalar**

- Xüsusi İnkişaf Komissiyası
- İnsan Haqları Komissiyası
- Narkotik Vasitələr Komissiyası
- Cinayıtkarlıq və Cəza Hüququ Komissiyası
- Elm və Texnika Komissiyası
- Dayanıqlı İnkişaf Komissiyası
- Qadınların Vəziyyəti Komissiyası
- Əhali Yerləşməsi və İnkişaf Komissiyası
- Statistika Komissiyası

**Regional Komissiyalar**

- Afrika İqtisadi Komissiyası
- Avropa İqtisadi Komissiyası
- Latın Amerikası və Karib hövzəsi İqtisadi Komissiyası
- Asiya və Sakit Okean İqtisadi və Sosial Komissiyası
- Qərbi Asiya İqtisadi və Sosial Komissiyası
- Meşələr üzrə BMT Forumu
- Sessiya və daimi komitələr
- Konsultativ, xüsusi orqanlar

**BMT ilə əlaqəli orqanlar**

**MAQATE**
Atom Enerjisi üzrə Beynəlxalq Agentlik

**ÜTT** (ticarət)
Ümumdünya Ticarət Təşkilatı

**ÜTT** (turizm)
Ümumdünya Turizm Təşkilatı

Nüvə Sınaqlarının Qadağan edilməsi üzrə BMT Komissiyası

Kimyəvi Silahın Qadağan edilməsi üzrə Təşkilat

## Himayəçilik Şurası

**İXTİSASLAŞMIŞ QURUMLAR***

- Beynəlxalq Əmək Təşkilatı - **BƏT**
- BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı - **FAO**
- BMT-nin Təhsil, Elm və Mədəniyyət Məsələləri Təşkilatı - **YUNESKO**
- Ümumdünya Səhiyyə Təşkilatı - **ÜST**

**Dünya Bankı Qrupu**

- Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı - **BYİB**
- Beynəlxalq İnkişaf Assosiasiyası - **BİA**
- Beynəlxalq Maliyyə Korporasiyası - **BMK**
- Çoxtərəfli İnvestisiyalar üzrə Zəmanət Agentliyi - **MİGA**
- İnvestisiya Mübahisələrinin Tənzimlənməsi üzrə Beynəlxalq Mərkəz

- Beynəlxalq Valyuta Fondu - **BVF**
- Beynəlxalq Mülki Aviasiya Təşkilatı
- Beynəlxalq Dəniz Təşkilatı
- Beynəlxalq Elektrik Əlaqəsi İttifaqı
- Ümumdünya Poçt İttifaqı
- Ümumdünya Meteorologiya Təşkilatı
- Ümumdünya Əqli Mülkiyyəti Təşkilatı
- Beynəlxalq Kənd Təsərrüfatı İnkişafı Fondu
- Birləşmiş Millətlərin Sənaye İnkişafı Təşkilatı - **YUNİDO**

## Katiblik

- Baş Katibin Dəftərxanası
- Daxili Nəzarət Xidmətləri İdarəsi
- Hüquqi Məsələlər İdarəsi
- Siyasi Məsələlər Departamenti
- Tərki-silah Məsələləri Departamenti
- Sülhün Dəstəklənməsi üzrə Əməliyyatlar Departamenti
- Humanitar Fəaliyyətin Koordinasiyası İdarəsi
- İqtisadi və Sosial Məsələlər Departamenti
- Baş Assambleyanın İşləri və Konferensiya İdarəetməsi Departamenti
- İctimai İnformasiya Departamenti
- İdarəetmə Məsələləri Departamenti
- İraq üzrə Proqram İdarəsi
- Təhlükəsizlik Məsələləri üzrə BMT Koordinatoru
- Narkotiklərə Nəzarət və Cinayətkarlıq İdarəsi
- BMT-nin Cenevrə Şöbəsi
- BMT-nin Vyana Şöbəsi
- BMT-nin Nayrobi Şöbəsi

* işləri İqtisadi və Sosial Şura vasitəsilə BMT-nin fəaliyyəti ilə koordinasiya edilən avtonom təşkilatlar; ** yalnız Baş Məclisə hesabat verir; **Mənbə:** BMT-nin rəsmi İnternet saytı – www.un.org

Maddə 11-ə görə, Baş Məclis beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması işində əməkdaşlığın ümumi prinsiplərini, o cümlədən tərksilah və silahların tənzimlənməsi məsələlərini müəyyən edən prinsipləri nəzərdən keçirə bilər və BMT üzvlərinə və ya Təhlükəsizlik Şurasına və yaxud onların hər ikisinə bu prinsiplərlə bağlı tövsiyələr edə bilər.

Eyni zamanda, Baş Məclis beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanmasına aid olan BMT-nin hər hansı üzvü, Təhlükəsizlik Şurası və ya BMT üzvü olmayan dövlət tərəfindən ona təqdim olunmuş istənilən məsələni müzakirə edə bilər və 12-ci maddə ilə nəzərdə tutulmuş hallardan başqa, hər hansı belə bir məsələ ilə bağlı maraqlı dövlətə və ya dövlətlərə, Təhlükəsizlik Şurasına və yaxud onların hər ikisinə tövsiyələr edə bilər. Barəsində tədbir görülməli olan hər hansı belə məsələ Baş Məclis tərəfindən ya müzakirədən qabaq, ya da ondan sonra Təhlükəsizlik Şurasına verilir.

Baş Məclis Təhlükəsizlik Şurasının diqqətini beynəlxalq sülhü və təhlükəsizliyi təhlükəyə məruz qoya bilən situasiyalara yönəldə bilər.

Maddə 13-ə əsasən Baş Məclis aşağıdakı məqsədlərlə tədqiqatlar təşkil edir və tövsiyələr edir:

a. siyasi sahədə beynəlxalq əməkdaşlığa dəstək vermək və beynəlxalq hüququn mütərəqqi inkişafını və onun məcəlləşdirilməsini həvəsləndirmək;
b. iqtisadi, sosial, mədəni sahələrdə, təhsil və səhiyyə sahələrində beynəlxalq əməkdaşlığa dəstək vermək və irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarının həyata keçirilməsinə yardım göstərmək.

Maddə 14-ə görə, 12-ci maddənin göstərişlərini nəzərə almaqla, Baş Məclis, mənşəyindən asılı olmayaraq, ümumi əmin-amanlığı və millətlər arasındakı dostluq münasibətlərini poza bilən hər hansı bir situasiyanın, o cümlədən Nizamnamənin, BMT-nin məqsəd və prinsiplərini təsbit edən müddəalarının pozulması nəticəsində əmələ gələn situasiyaların dinc yolla nizama salınması üçün tədbirlər tövsiyə edə bilər.

Maddə 15-ə əsasən:

1. Baş Məclis Təhlükəsizlik Şurasında illik və xüsusi məruzələr qəbul edir və onlara baxır; bu məruzələr beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması məqsədilə Təhlükəsizlik Şurası tərəfindən görülməsi qərara alınmış və ya görülmüş tədbirlər barəsində hesabatı özündə əks etdirməlidir.
2. Baş Məclis BMT-nin digər orqanlarından məruzələr qəbul edir və onlara baxır.

Maddə 16-ya görə, Baş Məclis beynəlxalq qəyyumluq sistemi ilə əlaqədar ona həvalə olunmuş funksiyaları, o cümlədən strateji ərazilər kimi müəyyən olunmamış ərazilər üçün qəyyumluq haqqında sazişlərin təsdiq edilməsi funksiyasını yerinə yetirir.

Maddə 17-də qeyd olunur ki, Baş Məclis Təşkilatın büdcəsini nəzərdən keçirir və təsdiq edir. Təşkilatın xərcləri onun üzvləri tərəfindən Baş Məclisin müəyyən etdiyi kimi aparılır. Baş Məclis ixtisaslaşdırılmış təsisatlarla istənilən maliyyə və büdcə sazişlərini nəzərdən keçirir və təsdiq edir, müvafiq ixtisaslaşdırılmış təsisatlara tövsiyələr etmək məqsədilə onların inzibati büdcələrini yoxlayır.

Baş Məclisdə səsvermə prosesi 18-19-cu maddələrlə tənzimlənir. Maddə 18-ə görə, Baş Məclisnın hər bir üzvü bir səsə malikdir. Baş Məclisnın mühüm məsələlər üzrə qərarları onun sessiyada və səsvermədə iştirak edən üzvlərinin üçdə iki səs çoxluğu ilə qəbul edilir. Bu məsələlərə aşağıdakılar daxildir: beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması ilə əlaqədar tövsiyələr, Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlərinin seçilməsi, İqtisadi və Sosial Şuranın üzvlərinin seçilməsi, Qəyyumluq Şurasının üzvlərinin seçilməsi, BMT-yə yeni üzvlərin qəbul olunması, Təşkilat üzvlərinin hüquq və imtiyazlarının müvəqqəti dayandırılması, Üzvlərin Təşkilatdan çıxarılması, qəyyumluq sisteminin fəaliyyətinə aid olan məsələlər və büdcə məsələləri. Digər məsələlər üzrə qərarlar (üçdə iki səs çoxluğu ilə qəbul olunmalı olan məsələlərin əlavə kateqoriyalarının müəyyən edilməsi də daxil olmaqla) sessiyada və səsvermədə iştirak edən üzv-dövlətlərin sadə səs çoxluğu ilə qəbul edilir.

Maddə 19-da göstərilir ki, Təşkilata üzvlük haqqını ödəməkdə borcu olan üzv-dövlət, əgər onun borcunun miqdarı iki bundan əvvəlki bütöv il üçün ödəməli olduğu üzvlük haqqına bərabərdirsə və ya ondan çoxdursa, Baş Məclisdə səsvermə hüququndan məhrum edilir. Lakin Baş Məclis, üzvlük haqqının üzv-dövlətdən asılı olmayan hallara görə ödənilmədiyi qənaətinə gələrsə, həmin üzv-dövlətin səsvermədə iştirak etməsinə icazə verə bilər.

Maddə 20-22-də Baş Məclisin iş proseduru öz əksini tapmışdır. Maddə 20-yə görə, Baş Məclis öz müntəzəm illik sessiyalarına və vəziyyət tələb etdikdə, xüsusi sessiyalara yığışır. Baş Məclisin müntəzəm illik sessiyaları adətən hər ilin sentyabr ayının üçüncü çərşənbə axşamı açılır və dekabr ayına qədər davam edir. Xüsusi sessiyalar Baş Katib tərəfindən Təhlükəsizlik Şurasının və ya Təşkilatın Üzvlərinin əksər hissəsinin tələbi ilə çağırılır. Maddə 21-ə əsasən, Baş Məclis özünün prosedur qaydalarını müəyyən edir və hər sessiya üçün öz sədrini seçir. Maddə 22-də isə qeyd olunur ki, Baş Məclis öz funksiyalarını yerinə yetirmək üçün zəruri hesab etdiyi köməkçi orqanlar yarada bilər.

Hazırda Baş Məclisin strukturu aşağıdakı kimi formalaşmışdır:

1. Sədr;
2. Sədrin müavinləri (17);
3. Əsas komitələr: siyasi və təhlükəsizlik məsələləri üzrə; iqtisadi və maliyyə məsələləri üzrə; sosial, humanitar və mədəniyyət məsələləri üzrə; hüquqi məsələlr üzrə, qəyyumluq üzrə.
4. Komitələr: inzibati və büdcə məsələləri üzrə; üzvlük-haqları üzrə; atom enerjisi üzrə; tərk-silah üzrə, kosmik məkandan istifadə üzrə və s.
5. Sessiya orqanları: Baş Komitə və Səlahiyyətlərin yoxlanılması üzrə Komitə.
6. Komissiyalar: təftiş komissiyası; beynəlxalq hüquq komissiyası; insan haqları üzrə komissiya və s.

Sessiyalar arasında BMT-nin işi Baş Məclisin altı əsas komitəsində, digər köməkçi orqanlarda və BMT Katibliyində davam etdirilir.

***Təhlükəsizlik Şurası***nın səlahiyyətinə beynəlxalq sülh və təhlükəsizliyin dəstəklənməsi, mübahisələrin dinc yolla həlli, məcburetmə tədbirlərinin qəbul edilməsi, BMT-yə üzvlüklə və BMT-dən xaric etməklə bağlı rəy, Beynəlxalq Məhkəmənin üzvlərinin seçimi və s. aiddir.

Təhlükəsizlik Şurasının fəaliyyəti BMT nizamnaməsinin V fəsli ilə tənzimlənir. Maddə 23-də Şuranın tərkibi barədə müddəalar əks olunmuşdur. Bu maddəyə əsasən, Təhlükəsizlik Şurası on beş Təşkilat üzvündən ibarətdir. Çin Respublikası, Fransa, Sovet Sosialist Respublikaları İttifaqı (Rusiya), Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı və Amerika Birləşmiş Ştatları Təhlükəsizlik Şurasının daimi üzvləridir. Baş Məclis Təşkilatın digər on üzvünü Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi seçir. Bu zaman ilk növbədə Təşkilatın üzvlərinin

beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanmasına və Təşkilatın digər məqsədlərinə nail olunmasına verdiyi töhfəyə və habelə ədalətli coğrafi bölgüyə lazımi diqqət yetirilir.

Qəbul olunmuş ənənəyə əsasən, on qeyri daimi üzvün coğrafi bölgüsü aşağıdakı kimidir: Afrika – 3 yer, Asiya – 2 yer, Latın Amerikası – 2 yer, Qərbi Avropa, Kanada, Avstraliya, Yeni Zelandiya – 2 yer, Şərqi Avropa – 1 yer.

Təhlükəsizlik Şurasının qeyri-daimi üzvləri iki il müddətinə seçilir. Qeyri-daimi üzvlərin, Təhlükəsizlik Şurasının üzvlərinin sayı on birdən on beşə artdıqdan sonra keçirilən ilk seçkisində dörd əlavə üzvdən ikisi bir il müddətinə seçilir. Şuranın üzvlüyündən çıxan dövlətin dərhal yenidən seçilmək hüququ yoxdur.

Təhlükəsizlik Şurasının hər bir üzvünün bir nümayəndəsi olur.

Təhlükəsizlik Şurasının funksiyaları və səlahiyyətləri Maddə 24-26-da qeyd olunmuşdur. Maddə 24-ə görə, BMT-nin cəld və səmərəli hərəkətlərini təmin etmək üçün onun üzvləri beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanmasına görə başlıca məsuliyyəti Təhlükəsizlik Şurasının üzərinə qoyurlar və razılaşırlar ki, bu məsuliyyətdən irəli gələn vəzifələrini yerinə yetirərkən Təhlükəsizlik Şurası onların adından çıxış edir. Öz vəzifələrini icra edərkən Təhlükəsizlik Şurası Birləşmiş Millətlərin məqsəd və prinsiplərinə uyğun olaraq hərəkət edir. Təhlükəsizlik Şurası Baş Məclis tərəfindən baxılmaq üçün ona illik və lazım olduqda, xüsusi məruzələr təqdim edir.

Maddə 25-də qeyd edilir ki, BMT üzvləri razılaşırlar ki, Nizamnaməyə uyğun olaraq Təhlükəsizlik Şurasının qərarlarına tabe olsunlar və onları yerinə yetirsinlər.

Maddə 26-da bildirilir ki, dünyanın insan və iqtisadi resurslarını silah işi üçün ən az miqdarda ayırmaqla, beynəlxalq sülhün və təhlükəsizliyin bərqərar olunmasına və qorunub saxlanmasına dəstək vermək məqsədilə Təhlükəsizlik Şurası Hərbi Qərargah Komitəsinin köməyi ilə BMT üzvlərinə təqdim olunmaq üçün silahların nizama salınması sisteminin yaradılması üzrə planların tərtib edilməsinə görə məsuliyyət daşıyır.

Təhlükəsizlik Şurasının funksiyalarını aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Ümumi:
   - BMT-nin yeni üzvlərinin qəbulu və baş katibin namizədliyi üzrə tövsiyələr verir;
   - strateji ərazilərin idarəedilməsinə nəzarəti həyata keçirir;

- BMT üzvü olmayan dövlətlərin Beynəlxalq Məhkəmənin Statutunda iştirakı şərtlərini müəyyən edir.

2. Dövlətlər arasında mübahisə halında:
   - mübahisənin dinc yolla həll edilməsi barədə tələblə çıxış edir;
   - sülh tənzimlənməsinin prosedur və ya üsullarını tövsiyə edir.
3. Sülhün pozulması, aqressiya zamanı:
   - hərəkətlərin aqressiya kimi təsnif edilməsi barədə qərar qəbul edir;
   - BMT-nin üzv-dövlətləri ilə onlar tərəfindən hərbi qüvvələrin təqdim edilməsi barədə sazişlər imzalayır;
   - formalaşdırılmış hərbi qüvvələrdən ayırma, müşahidə və təhlükəsizliyin təmin edilməsi məqsədilə istifadə edir.
4. Sülhə təhlükə olduğu hallarda:
   - diplomatik münasibətləri kəsir;
   - iqtisadi əlaqələri dayandırır;
   - hava nəqliyyatını kəsir;
   - dəmir yolu nəqliyyatını kəsir;
   - poçt və teleqraf əlaqəsini kəsir;
   - portları blok edir;
   - hərbi qüvvə nümayiş etdirir və s.

Təhlükəsizlik Şurasında səsvermə məsələsi Maddə 27-də əks olunmuşdur. Belə ki, Təhlükəsizlik Şurasının hər bir üzvü bir səsə malikdir. Təhlükəsizlik Şurasının prosedur məsələlər üzrə qərarları doqquz üzvün lehinə səs verməsi ilə qəbul olunur. Təhlükəsizlik Şurasının bütün digər məsələlər üzrə qərarları, daimi üzvlərin uyğun gələn səsləri də daxil olmaqla (bu o deməkdir ki, daimi üzvlərdən birinin məsələnin əleyhinə səs verməsi artıq bu məsələnin rədd edilməsi deməkdir), doqquz üzvün lehinə səs verməsi ilə qəbul olunur.

Təhlükəsizlik Şurasının iş proseduru 28-32-ci maddələrlə tənzimlənir. Maddə 28-ə görə, Təhlükəsizlik Şurası elə təşkil olunur ki, fasiləsiz fəaliyyət göstərə bilsin. Təhlükəsizlik Şurasının hər bir üzvü bu məqsədlə Təşkilatın olduğu yerdə hər an təmsil olunmalıdır.

Təhlükəsizlik Şurası mütəmadi iclaslar keçirir və bu iclaslarda onun üzvlərindən hər biri öz arzusu ilə hökumətin üzvü və ya hər hansı digər xüsusi təyin olunmuş nümayəndə vasitəsilə təmsil oluna bilər.

Təhlükəsizlik Şurası öz iclaslarını nəinki Təşkilatın olduğu yerdə, habelə, onun fikrincə, işinə daha yaxşı kömək edən istənilən yerdə keçirə bilər.

Maddə 29-da qeyd olunur ki, Təhlükəsizlik Şurası öz funksiyalarını yerinə yetirmək üçün zəruri hesab etdiyi köməkçi orqanlar yarada bilər.

Maddə 30-a əsasən, Təhlükəsizlik Şurası, öz Sədrini seçmək qaydası da daxil olmaqla, özünün prosedur qaydalarını müəyyən edir.

Maddə 31-də bildirilir ki, Təhlükəsizlik Şurasının üzvü olmayan hər hansı Təşkilat üzvü Təhlükəsizlik Şurasına təqdim olunmuş istənilən məsələnin müzakirəsində səsvermə hüququ olmadan iştirak edə bilər. Belə bir iştirak Təhlükəsizlik Şurasının, həmin Üzv-dövlətin maraqlarına xüsusilə toxunulduğunu hesab etdiyi istənilən halda mümkündür.

Maddə 32-yə görə, Təhlükəsizlik Şurasının üzvü olmayan hər hansı Təşkilat üzvü və ya Təşkilatın üzvü olmayan hər hansı dövlət, Təhlükəsizlik Şurasında baxılan mübahisənin tərəfi olduqda, bu mübahisəyə aid olan müzakirədə, səsvermə hüququ olmadan, iştirak etmək üçün dəvət olunur. Təhlükəsizlik Şurası, Təşkilatın üzvü olmayan dövlətin iştirakı üçün ədalətli hesab etdiyi şərtlər müəyyən edir.

Baş Məclisin ümumi rəhbərliyi altında fəaliyyət göstərən **İqtisadi və Sosial Şura** BMT və bu sistemə daxil olan təşkilatların iqtisadi və sosial sahələrdə fəaliyyətini tənzimləyir. Beynəlxalq iqtisadi və sosial problemlərin müzakirəsi və bu sahədə yeridilən siyasətə münasibətdə tövsiyələrin işlənməsi üçün əsas forum rolunu oynayan Şura inkişaf məqsədilə beynəlxalq əməkdaşlığın gücləndirilməsində mühüm rol oynayır. Öz fəaliyyətində Şura müvafiq qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq edir.

İqtisadi və Sosial Şuranın fəaliyyəti Nizamnamənin X fəsli ilə tənzimlənir. Şuranın tərkibi barədə müddəalar 61-ci maddədə öz əksini tapmışdır. Belə ki, İqtisadi və Sosial Şura Birləşmiş Millətlərin Baş Məclisi tərəfindən seçilən əlli dörd üzvdən ibarətdir. İqtisadi və Sosial Şuranın on səkkiz üzvü hər il üç il müddətinə seçilir. Şuranın üzvlüyündən çıxan dövlətin dərhal yenidən seçilmək hüququ vardır. İqtisadi və Sosial Şuranın üzvlərinin sayı iyirmi yeddidən əlli dördə artdıqdan sonra keçirilən ilk seçkidə, səlahiyyət müddəti həmin ilin axırında bitən doqquz üzvün

yerinə seçilən üzvlərə əlavə olaraq, daha iyirmi yeddi üzv seçilir. Həmin əlavə iyirmi yeddi üzvdən bu yolla seçilmiş doqquz üzvün səlahiyyət müddəti, Baş Məclisin qərarına müvafiq olaraq, bir ildən sonra, daha doqquz üzvün səlahiyyət müddəti isə iki ildən sonra bitir. İqtisadi və Sosial Şuranın hər bir üzvünün bir nümayəndəsi olur.

Şuranın funksiyaları və səlahiyyətləri maddə 62-66-da göstərilmişdir. Maddə 62-də qeyd olunmuşdur ki, İqtisadi və Sosial Şura iqtisadi, sosial, mədəni, təhsil, səhiyyə və yanaşı sahələrdə beynəlxalq məsələlərə aid tədqiqatlar və məruzələr edə bilər və ya istənilən belə məsələlərə aid Baş Məclisə, BMT üzvlərinə və maraqlı ixtisaslaşdırılmış təsisatlara tövsiyələr edə bilər. Şura hər bir kəsin əsas hüquq və azadlıqlarına hörmət edilməsinə və riayət edilməsinə dəstək vermək üçün tövsiyələr edə bilər; Baş Məclisə təqdim etmək üçün, öz səlahiyyəti çərçivəsində olan məsələlərə aid konvensiya layihələri hazırlaya bilər; BMT tərəfindən müəyyən edilmiş qaydalara uyğun olaraq, öz səlahiyyəti çərçivəsində olan məsələlərə aid beynəlxalq konfranslar çağıra bilər.

Maddə 63-ə görə, İqtisadi və Sosial Şura ixtisaslaşmış təşkilatların hər hansı biri ilə sazişlərə girə bilər. Baş Məclis tərəfindən təsdiq edilməli olan bu sazişlər müvafiq təsisatın Birləşmiş Millətlərlə əlaqəyə gətirilməsinin əsası olan şərtləri müəyyən edir. Şura, ixtisaslaşdırılmış təsisatlarla məsləhətləşmələr aparmaq və tövsiyələr etmək yolu ilə və Baş Məclisə və Birləşmiş Millətlərin üzvlərinə tövsiyələr vasitəsilə həmin təsisatların fəaliyyətini əlaqələndirə bilər.

Maddə 64-ə əsasən, İqtisadi və Sosial Şura ixtisaslaşdırılmış təsisatlardan müntəzəm məruzələr almaq üçün müvafiq addımlar ata bilər. O, öz tövsiyələrini və səlahiyyələri çərçivəsində olan məsələlər üzrə Baş Məclis tərəfindən edilmiş tövsiyələri həyata keçirmək üçün atılmış addımlar barədə məruzələr almaq məqsədilə BMT üzvləri ilə və ixtisaslaşdırılmış təsisatlarla sazişlər bağlaya bilər. Şura, bu məruzələrə aid öz qeydləri barədə Baş Məclisə məlumat verə bilər.

Maddə 65-də bildirilir ki, İqtisadi və Sosial Şura Təhlükəsizlik Şurasına məlumat təqdim edə bilər və Təhlükəsizlik Şurasının müraciəti ilə, ona gömək edə bilər.

Maddə 66-ya görə, İqtisadi və Sosial Şura o funksiyaları yerinə yetirir ki, bunlar Baş Məclisin tövsiyələrini həyata keçirməklə əlaqədar Şuranın səlahiyyətləri çərçivəsinə aid edilmiş olur. Baş Məclis buna razılıq verərsə, Şura, Təşkilatın üzvlərinin xahişi ilə və ixtisaslaşdırılmış

təsisatların xahişi ilə xidmətlər göstərə bilər. Şura habelə Nizamnamənin digər müddəalarında öz əksini tapmış və ya Baş Məclis tərəfindən onun üzərinə qoyulmuş funksiyaları yerinə yetirir.

İqtisadi və Sosial Şurada səsvermə 67-ci maddə ilə tənzimlənir. Bu maddəyə əsasən, İqtisadi və Sosial Şuranın hər bir üzvü bir səsə malikdir. İqtisadi və sosial Şuranın qərarları iştirak edən və səs verən üzvlərin səs çoxluğu ilə qəbul olunur.

Şuranın fəaliyyət proseduru 68-72-ci maddələrdə öz əksini tapmışdır. Maddə 68-də qeyd olunur ki, İqtisadi və Sosial Şura iqtisadi və sosial sahələrdə və insan hüquqlarına dəstək vermək üçün komissiyalar və habelə öz funksiyalarının icrası üçün tələb olunan digər bu cür komissiyalar təsis edir.

Maddə 69-a əsasən, İqtisadi və Sosial Şura BMT-nin hər hansı üzvünü, bu üzv-dövlət üçün xüsusi maraq kəsb edən istənilən məsələnin müzakirəsində, səsvermə hüququ olmadan, iştirak etməyə dəvət edir.

Maddə 70-ə görə, İqtisadi və Sosial Şura ixtisaslaşdırılmış təsisatların nümayəndələrinin Şurada və onun təsis etdiyi komissiyalarda keçirilən müzakirələrdə səsvermə hüququ olmadan iştirakı üçün və habelə öz nümayəndələrinin ixtisaslaşdırılmış təsisatlardakı müzakirələrdə iştirakı üçün tədbirlər həyata keçirə bilər.

Maddə 71-də göstərilir ki, İqtisadi və Sosial Şura onun səlahiyyətləri çərçivəsində olan məsələlərlə məşğul olan qeyri-hökumət təşkilatları ilə məsləhətləşmə aparılması üçün müvafiq tədbirlər həyata keçirə bilər. Bu tədbirlər beynəlxalq təşkilatlarla və buna lüzum varsa, maraqlı Təşkilat üzvü ilə məsləhətləşmədən sonra milli təşkilatlarla razılaşdırıla bilər.

Maddə 72-də qeyd edilir ki, İqtisadi və Sosial Şura öz Sədrini seçmək qaydası da daxil olmaqla, özünün prosedur qaydalarını müəyyən edir. İqtisadi və Sosial Şura, buna lüzum olduqda, öz qaydalarına uyğun olaraq çağırılır; bu qaydalar Şuranın üzvlərinin əksər hissəsinin tələbi ilə iclasların çağırılması barədə müddəanı özündə əks etdirməlidir.

Şura hər il özünün sessiyasını keçirir. Bir ay davam edən bu sessiyalar 1 il Nyu-Yorkda, növbəti il isə Cenevrədə keçirilir. Sessiya zamanı əsas iqtisadi və sosial məsələləri müzakirə etmək üçün nazirlər səviyyəsində xüsusi iclas keçirilir.

Il ərzində isə Şuranın işi onun köməkçi orqanları vasitəsilə həyata keçirilir ki, onlar da müntəzəm olaraq öz iclaslarını keçirir və Şuraya hesabat verirlər.

İqtisadi və Sosial Şura BMT-nin 14 ixtisaslaşmış təsisatının, 10 funksional komissiyasının və regional komissiyanın işini koordinasiya edir, BMT-nin 11 fond və proqramlarından hesabat alır və BMT sisteminə daxil olan təşkilatlara və üzv dövlətlərə tövsiyələr verir. BMT sisteminin insan və maliyyə resurslarının təxminən 70%-i İqtisadi və Sosial Şuranın sərəncamındadır.

İqtisadi və Sosial Şuranın fəaliyyəti iqtisadi və sosial məsələ və problemlərin geniş dairəsini əhatə edir. Bu məsələlərə aşağıdakılar aiddir:

- dünyada iqtisadi və sosial vəziyyət, fundamental icmallar və analitik materialların hazırlanması; BMT Universiteti (BMTU, 1972-ci il) və BMT-nin təhsil və elmi-tədqiqat institutu (YUNİTAR, 1965-ci il) tərəfindən həyata keçirilir;
- beynəlxalq ticarətin vəziyyəti və inkişafı; BMT-nin Ticarət və İnkişaf Konfransı (YUNKTAD, 1964-cü il) və BMT-nin ticarət hüququ komissiyası (YUNSİTRAL, 1968-ci il) tərəfindən öyrənilir və koordinasiya edilir;
- ətraf mühitin müdafiəsinin aktual problemləri; BMT-nin ətraf mühit Proqramı (YUNEP, 1972-ci il) çərçivəsində və fövqəladə vəziyyət hallarında yardımın göstərilməsi üzrə BMT Koordinatorunun Bürosu (YUNDRO, 1972-ci il) tərəfindən həll edilir;
- iqtisadi və elmi-texniki sahələrdə inkişaf etməkdə olan ölkələrə yardım proqramları; BMT-nin İnkişaf Proqramı (BMTİP, 1966-cı il), BMT-nin Sənaye İnkişafı üzrə Təşkilatı (YUNİDO, 1967-ci il), Beynəlxalq Kənd Təsərrüfatı İnkişafı Fondu (BKTİF, 1976-cı il) çərçivəsində göstərilir;
- ərzaq probleminin müxtəlif aspektləri; Dünya Ərzaq Proqramının (DƏP, 1961-ci il), Ümumdünya Ərzaq Komitəsinin (ÜƏK, 1974-cü il), Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO, 1945-ci il) səalhiyyətlərinə aiddir;
- sosial-iqtisadi statistika və onun harmonlaşdırılması və təkmilləşdirilməsi məsələləri; Statistika Komissiyası (1946-cı il) həll edir;
- demoqrafik problemlər və əhali məntəqələrinin problemləri; BMT-nin əhali yerləşməsi Fondu (YUNFPA, 1967-ci il), Beynəlxalq Əmək Təşkilatı (BƏT, 1946-cı il), Qaçqınların işi üzrə Ali Komissarın İdarəsi (1949-cu il), BMT-nin Uşaq Fondu (YUNİSEF, 1946-cı il), Ümumdünya Səhiyyə Təşkilatı (ÜST, 1946-cı il) çərçivəsində həll edilir;

- təbii resurslardan rasional istifadə məsələləri; təbii resurslar üzrə Komitə (1970-ci il), yeni və bərpa edilən enerji mənbələrinin mənimsənilməsi və istifadə edilməsi üzrə Komitə (1982-ci il) həll edir;
- maliyyə resurslarının mobilizasiyası və istifadəsi məsələləri; beynəlxalq maliyyə təşkilatları (Beynəlxalq Valyuta Fondu və Dünya Bankı Qrupu) çərçivəsində həll edilir;
- inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatlarında dövlət və kooperativ sektorlarının rolu və nisbətinin təhlili;
- regional əməkdaşlıq məsələləri (regional məhəlli iqtisadi komissiyalar vasitəsilə həyata keçirilir) və s.

Son illərdə İqtisadi və Sosial Şuranın işi xeyli aktivləşmişdir ki, bu da qloballaşma prosesi kontekstində ortaya çıxmış bir sıra iri vəzifələrin həllində onun aparıcı rol oynaması ilə əlaqədardır. Dayanıqlı inkişaf, sosial inkişaf və s. mövzularla məşğul olan komissiyaların işini koordinasiya etməklə yanaşı, Şura inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasındakı "rəqəmli texnologiyalar fərqi"nin aradan qaldırılması kimi yeni vəzifələrin həlli üzrə fəaliyyətə rəhbərlik edir və bu əsasda informasiya-kommunikasiya texnologiyaları sahəsində tədbirlər planını həyata keçirir. Bundan başqa, Şura siyasi dialoq üçün vacib foruma çevrilib ki, bu forum çərçivəsində də Dünya Bankı və Beynəlxalq Valyuta Fondunun rəhbərliyi BMT nəzdində fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri ilə siyasətin yeni istiqamətlərini müəyyən edirlər.

BMT-nin digər baş orqanı **Qəyyumluq Şurası**dır. Bu Şura qəyyumıuq altında olan ərazilərdə beynəlxalq müşahidənin təmin edilməsi üçün, həmçinin bu ərazilərin hökumətlərinin özünüidarəetməyə və ya müstəqilliyə hazırlaşamaq üçün zəruri səyləri göstərmələrinin təmin edilməsi üçün yaradılmışdır. O yaradılarkən 11 bu cür ərazi 7 üzv-dövlətin idarəsi altında olub.

Qəyyumluq Şurasının fəaliyyəti Nizamnamənin XIII fəsli ilə tənzimlənir. 86-cı maddədə Şuranın tərkibi müəyyən edilmişdir. Bu maddəyə görə, Qəyyumluq Şurası, BMT-nin aşağıdakı Üzvlərindən ibarətdir:

- qəyyumluq altında olan əraziləri idarə edən üzv-dövlətlər;
- Təhlükəsizlik Şurasının daimi üzvləri;
- Baş Məclis tərəfindən üç il müddətinə seçilən üzv-dövlətlər; onların sayı Qəyyumluq Şurasının üzvlərinin ümumi sayının BMT-nin qəyyumluq altında olan əraziləri idarə edən

və idarə etməyən üzvləri arasında bərabər bölünməsini təmin etmək məqsədindən çıxış edilərək müəyyən edilir.

Qəyyumluq Şurasının hər bir üzvü onu Şurada təmsil etmək üçün xüsusi ixtisaslı bir şəxs təyin edir.

Şuranın funksiyaları və səlahiyyətləri 87-88-ci maddələrdə öz əksini tapmışdır. Maddə 87-də qeyd olunur ki, Baş Məclis və onun rəhbərliyi altında Qəyyumluq Şurası öz funksiyalarını yerinə yetirərkən:

- idarə edən hakimiyyət tərəfindən təqdim olunan məruzələri nəzərdən keçirə bilər;
- petisiyalar qəbul etmək və onları idarə edən hakimiyyətlə məsləhətləşməklə onlara baxa bilər;
- idarə edən hakimiyyətlə razılaşdırılmış müddətlərdə qəyyumluq altında olan müvafiq ərazilərə müntəzəm vizitlər təşkil edə bilər;
- qəyyumluq haqqında sazişlərin şərtlərinə müvafiq olaraq bu göstərilmiş və digər tədbirləri görə bilər.

Maddə 88-də bildirilir ki, Qəyyumluq Şurası hər bir qəyyumluq altında olan ərazinin əhalisinin siyasi, iqtisadi, sosial tərəqqisinə və təhsil sahəsində tərəqqisinə aid anket tərtib edir, Baş Məclisin səlahiyyətləri çərçivəsində olan hər bir qəyyumluq altında olan ərazini idarə edən hakimiyyət isə həmin anket əsasında Baş Məclisə illik məruzə təqdim edir.

Şurada səsvermə proseduru 89-cu maddə ilə tənzimlənir. Belə ki, Qəyyumluq Şurasının hər bir üzvü bir səsə malikdir və Qəyyumluq Şurasının qərarları iştirak edən və səs verən üzvlərin səs çoxluğu ilə qəbul olunur.

Şuranın fəaliyyət proseduru Maddə 90-91-də göstərilmişdir. Maddə 90-da göstərilir ki, Qəyyumluq Şurası öz Sədrini seçmək qaydası da daxil olmaqla, özünün prosedur qaydalarını müəyyən edir. Qəyyumluq Şurası, buna lüzum olduqda, öz qaydalarına uyğun olaraq çağırılır. Bu qaydalar Şuranın üzvlərinin əksər hissəsinin tələbi ilə iclasların çağırılması barədə müddəanı özündə əks etdirməlidir.

Maddə 91-ə görə, Qəyyumluq Şurası, lüzum olduqda, İqtisadi və Sosial Şuranın və müvafiq olaraq maraqlı olduqları məsələlərlə bağlı ixtisaslaşdırılmış təsisatların köməyindən istifadə edir.

1994-cü ilə artıq bütün qəyyumluq altında olan ərazilər özünüidarəetməyə keçmiş və ya müstəqillik qazanmış, və ya qonşu müstəqil dövlətlərə birləşmişlər. Şuranın fəaliyyətinin ümumən başa çatması ilə əlaqədar onun prosedur qaydalarına müəyynə dəyişikliklər edilmişdir. Yeni qaydalara görə, Şura iclaslarını yalnız vəziyyət bunu tələb etdikdə keçirir.

Digər baş orqan **Beynəlxalq Məhkəmə**nin fəaliyyəti Nizamnamənin XIV fəsli ilə tənzimlənir.

Maddə 92-də göstərilir ki, Beynəlxalq Məhkəmə BMT-nin əsas məhkəmə orqanıdır. O, Nizamnaməyə əlavə olunan Statuta uyğun olaraq fəaliyyət göstərir. Həmin Statut Daimi Beynəlxalq Ədalət Məhkəməsinin Statutuna əsaslanır və onun ayrılmaz tərkib hissəsini təşkil edir.

Maddə 93-ə görə, BMT-nin bütün Üzvləri “irso facto” Beynəlxalq Məhkəmənin Statutunun iştirakçılarıdır. BMT Üzvü olmayan dövlət, hər bir halda Təhlükəsizlik Şurasının tövsiyəsi əsasında Baş Məclis tərəfindən müəyyən olunan şərtlərlə, Beynəlxalq Məhkəmənin Statutunun iştirakçısı ola bilər.

Maddə 94-də qeyd olunur ki, BMT-nin hər bir Üzvü, tərəf kimi çıxış etdiyi istənilən işdə Beynəlxalq Məhkəmənin qərarına əməl etməyi öz öhdəsinə götürür. Əgər iş üzrə tərəflərdən biri Məhkəmənin çıxardığı qərarla onun üzərinə qoyulmuş öhdəlikləri icra etmirsə, o biri tərəf Təhlükəsizlik Şurasına müraciət edə bilər. Təhlükəsizlik Şurası, zəruri hesab etdikdə, tövsiyələr edə bilər və ya həmin qərarın həyata keçirilməsi üçün görülməli olan tədbirlər barəsində qərar qəbul edə bilər.

Maddə 95-ə görə, Nizamnamədə heç nə BMT Üzvlərinin öz mübahisələrinin həllini artıq qüvvədə olan və ya gələcəkdə bağlanıla bilən sazişlər əsasında başqa məhkəmələrə həvalə etməsinə maneə yaratmır.

Maddə 96-da qeyd olunur ki, Baş Məclis və ya Təhlükəsizlik Şurası Beynəlxalq Məhkəmədən istənilən hüquqi məsələ üzrə məsləhətçi rəy verməyi xahiş edə bilər. Baş Məclis tərəfindən istənilən vaxt buna icazə ala bilən BMT-nin digər orqanları və ixtisaslaşdırılmış təsisatlar da onların fəaliyyəti çərçivəsində ortaya çıxan hüquqi məsələlər üzrə Məhkəmədən məsləhətçi rəy istəyə bilər.

BMT-nin sonuncu baş orqanı **Katiblik** Baş Məclisin, Təhlükəszilik Şurasının və digər orqanların göstərişlərinə uyğun olaraq, təşkilatın əməliyyat və inzibati işini həyata keçirir.

Katibliyin fəaliyyəti Nizamnamənin XV fəsli ilə tənzimlənir. Maddə 97-yə görə, Katiblik **Baş Katib**dən və Təşkilat üçün tələb olunan ştatdan ibarətdir. Baş Katib Təhlükəsizlik Şurasının tövsiyəsi əsasında Baş Məclis tərəfindən təyin olunur. Baş Katib Təşkilatın baş inzibati vəzifəli şəxsidir.

Maddə 98-də qeyd olunur ki, Baş Katib bu keyfiyyətdə Baş Məclisin, Təhlükəsizlik Şurasının, İqtisadi və Sosial Şuranın və Qəyyumluq Şurasının bütün iclaslarında fəaliyyət göstərir və bu orqanlar tərəfindən ona həvalə olunan digər funksiyaları icra edir. Baş Katib Təşkilatın işi barədə Baş Məclisə illik məruzə təqdim edir.

Maddə 99-a əsasən, Baş Katib beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanmasına, onun fikrincə, təhlükə törədə bilən istənilən məsələni Təhlükəsizlik Şurasının nəzərinə çatdıra bilər.

Maddə 100-ə görə, öz vəzifələrini icra edərkən Baş Katib və Katibliyin heyəti hər hansı hökumətdən və ya Təşkilat üçün kənar olan hər hansı digər orqandan göstərişlər istəməməli və almamalıdır. Onlar, yalnız Təşkilat qarşısında məsuliyyət daşıyan beynəlxalq vəzifəli şəxslər kimi onların statusuna təsir göstərə bilən hər hansı hərəkətdən daşınmalıdırlar. BMT-nin hər bir Üzvü Baş Katibin və Katibliyin heyətinin vəzifələrinin sırf beynəlxalq xarakterinə hörmət etməyi və onlara öz vəzifələrini yerinə yetirərkən təsir göstərməyə cəhd etməməyi öz öhdələrinə götürürlər.

Maddə 101-də vurğulanır ki, Katibliyin heyəti Baş Katib tərəfindən Baş Məclisin müəyyən etdiyi qaydalara əsasən təyin olunur. Müvafiq heyət daimi əsasda işləmək üçün İqtisadi və Sosial Şuraya, Qəyyumluq Şurasına və buna lüzum oluqda, Təşkilatın digər orqanlarına ayrılır. Bu heyət Katibliyin bir hissəsini təşkil edir. Heyəti işə qəbul edərkən və xidmət şərtlərini müəyyən edərkən yüksək iş qabiliyyəti səviyyəsinin, səlahiyyətliliyin və təmizliyin təmin edilməsinin zəruriliyi ön plana çəkilir. Heyətin mümkün qədər geniş coğrafi əsasda seçilməsinin vacibliyinə lazımi diqqət yetirilməlidir.

Beləliklə, Katibliyə Baş Katib rəhbərlik edir və Təhlükəsizlik Şurasının tövsiyəsinə əsasən, Baş Məclis tərəfindən 5 il müddətinə təyin edilir. Baş katib dövlətlər arasında mübaqişlərin tənzimlənməsi üzrə səy göstərir və onun fikrincə beynəlxalq sülhə və təhlükəsizliyə təsir göstərə biləcək mübahisələr barəsində məlumatları Təhlükəsizlik Şurasında çıxarmaq hüququna malikdir. O həmçinin, BMT Katibliyinin departamentlərinə, idarələrinə və digər təşkilatı bölmələrinə direktiv göstərişlər verir və BMT sisteminin bütün işini koordinasiya edir. BMT-nin əsas vəzifəli

şəxsi kimi baş katib Baş Məclisin, Təhlükəsizlik Şurasının bütün iclaslarında iştirak edir və bu orqanlar tərəfindən onun üzərinə qoyulan digər funksiyaları yerinə yetirir.

Baş katib həmçinin BMT sistemi rəhbərlərinin Koordinasiya Şurasının sədridir. Bu şura geniş diapazonlu problemlərin həllində üzv-dövlətlərin qarşılarına qoyduqları ümumi məqsədlərin əldə edilməsi üzrə fəaliyyətin koordinasiyasını təmin etmək üçün ildə iki dəfə görüşür. Onun tərkibinə 27 təşkilatın icraçı rəhbərləri daxildir.

BMT-nin ilk baş katibi 1946-1952ci illərdə Tryüqve Li (Norveç) olub. 1953-1961-ci illərdə bu vəzifəni Daq Hammarşeld (İsveç), 1961-1971-ci illərdə U Tan (Myanma), 1972-1981-ci illərdə Kurt Valdhaym (Avstriya), 1982-1991-ci illərdə Havyer Peres (Peru), 1992-1996-cı illərdə Butros Butro Qali (Misir) yerinə yetirib. Hazırda baş katib vəzifəsini 1997-ci ildən etibarən Kofi Annan (Qana) tutur.

Hazırda Katiblik 14 departament və idarədən ibarətdir və orada dünyanın təxminən 170 ölkəsindən 7500 nəfər çalışır. Nyu-Yorkda yerləşən mərkəzi ofislə yanaşı, BMT-nin Cenevrədə, Vyanada və Nayrobidə şöbələri vardır.

BMT-nin aşağıdakı funksional komissiyaları və onların tərkibinə daxil olan alt komissiyaları vardır:

1. Statistika komissiyası.
2. Əhalinin yerləşdirilməsi və inkişaf üzrə komissiya.
3. Sosial inkişaf komissiyası.
4. İnsan haqları komissiyası.

    Üçlər Qrupu (aparteid cinayətlərinin qarşısının alınması və ona görə cəzalandırma haqqında Beynəlxalq Konvensiyaya uyğun olaraq yaradılıb).

    Zorakı və ya qeyri-könüllü yoxaçıxmalar üzrə İşçi Qrupu.

    İnsan haqlarının daim kobud surətdə pozulması hallarının öyrənilməsi üzrə İşçi Qrupu.

    Özbaşına saxlamar üzrə İşçi Qrupu.

    İnkişaf hüququ üzrə açıq tərkibli İşçi Qrupu.

    İşgəncə əleyhinə Konvensiyanın fakultativ protokol layihəsinin işlənməsi üzrə açıq tərkibli İşçi Qrupu.

Yerli xalqların haqları haqqında bəyannamə layihəsinin işlənməsi üzrə açıq tərkibli İşçi Qrupu.

Struktur yenidənqurma proqramlarına və iqtisadi, sosial, mədəni hüquqlara qid rəhbər baza prinsiplərinin işlənməsi üçün açıq tərkibli İşçi Qrupu.

İnsan haqlarının dəstəklənməsi və müdafiəsi üzrə altkomissiya.

Milli, etnik, dini və dil azlıqlarına aid şəxslərin hüquqları məsələsi üzrə İşçi Qrupu.

Quldarlığın müasir formaları üzrə İşçi Qrupu.

Yerli xalqlar üzrə İşçi Qrupu.

Altkomissiyaların iş metodları üzrə Sessiya İşçi Qrupu.

Transmilli şirkətlərin iş metodları və fəaliyyəti üzrə Sessiya İşçi Qrupu.

Rabitə üzrə İşçi Qrupu.

5. Qadınların vəziyyəti üzrə komissiya.
6. Narkotik vasitələr üzrə komissiya.

Yaxın və Orta Şərqdə narkotiklərin qeyri-qanuni dövriyyəsi və bununla əlaqədar məsələlər üzrə altkomissiya.

Narkotika haqqında qanunlara əməl edilməsinin təmin edilməsi üzrə milli təşkilat rəhbərlərinin Məclisi.

7. Cinayətkarlığın xəbərdar edilməsi üzrə komissiya.
8. Elm və texnika komissiyası.
9. Dayanıqlı inkişaf komissiyası.

Açıq tərkibli xüsusi işçi qrupları.

Energetika və dayanıqlı inkişaf üzrə ekspertlərin açıq tərkibli xüsusi hökumətlərarası qrupu.

10. BMT-nin meşələr üzrə Forumu.

BMT-nin daimi komitələrinə aşağıdakılar daxildir:

1. Proqramlar və koordinasiya Komitəsi.
2. Əhali məntəqələri üzrə komissiya.
3. Qeyri-hökumət təşkilatları Komitəsi.
4. Hökumətlərarası təşkilatlrla danışıqlar Komitəsi.

BMT-nin ekspert orqanlarına aşağıdakılar aiddir:

1. Hökumət ekspertlərinədn ibarət ekspert orqanları:
   - Təhlükəli yüklərin daşınması və kimyəvi maddələrin qlobal səviyyədə razılaşdırılmış təsnif və nişanlama sistemi üzrə ekspertlər Komitəsi.
   - BMT-nin coğrafi adlar üzrə ekspertlər qrupu.
2. Fərdi qaydada iştirak edən üzvlərdən ibarət ekspert orqanları:
   - İnkişaf sahəsində siyasət üzrə Komitə.
   - BMT-nin dövlət idarəetməsi və maliyyə sahəsində Proqramı üzrə ekspertlərin Məclisi.
   - Vergiqoyma sahəsində beynəlxalq əməkdaşlıq üzrə ekspertlərin xüsusi qrupu.
   - İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitə.
   - Enerji və təbii resurslar üzrə Komitə.

BMT-nin hazırda 14 ixtisaslaşdırılmış təsisatı vardır və onlar aşağıdakılardır.

1. ***Beynəlxalq Əmək Təşkilatı (BƏT)***. Əmək şəraitinin yaxşılaşdırılması və məşğulluğun səviyyəsinin yüksəldilməsi istiqamətində siyasət və proqramlar işləyir və həyata keçirir, bütün dünya ölkələri tərəfindən istifadə edilən beynəlxalq əmək standartlarını müəyyən edir.
2. ***BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO)***. Səylərini kənd təsərrüfatının məhsuldarlığının artırılmasına və ərzaq təhlükəsizliyinin gücləndirilməsinə, həmçinin kənd əhalisinin həyat şəraitinin yaxşılaşdırılmasına yönəldir.
3. ***BMT-nin Təhsil, Elm və Mədəniyyət Məsələləri Təşkilatı (YUNESKO)***. Ümumi təhsil məqsədlərinin həyata keçirilməsinə, mədəniyyətin inkişafına, ümumdünya təbiət və mədəni abidələrin qorunmasına, beynəlxalq elmi əməkdaşlığa, mətbuat və kommunikasiyaların azadlığının təmin edilməsinə dəstək verir.
4. ***Ümumdünya Səhiyyə Təşkilatı (ÜST)***. Səhiyyə problemlərinin həllinə və Yerin bütün əhalisinin sağlamlığının maksimal surətdə gücləndirilməsinə yönəldilmiş proqramların həyata keçirilməsini koordinasiya edir.
5. ***Dünya Bankı Qrupu***. Yoxsulluğun azaldılması və dayanıqlı iqtisadi artımın təmin edilməsi məqsədilə inkişaf etməkdə olan ölkələrə vəsait və texniki yardım təqdim edir.
6. ***Beynəlxalq Valyuta Fondu (BVF)***. Pul-kredit sferasında beynəlxalq əməkdaşlığın inkişafına və maliyyə sabitliyinin təmin edilməsinə səy göstərir, maliyyə məsələləri üzrə

məsləhətləşmələrin həyata keçirilməsi, tövsiyələrin verilməsi və yardım göstərilməsi üçün daim forum rolunu oynayır.

7. ***Beynəlxalq Mülki Aviasiya Təşkilatı***. Hava nəqliyyatının təhlükəsizliyinin, etibarlılığının və səmərəliliyinin təmin edilməsi üçün zəruri olan beynəlxalq normaları müəyyən edir və mülki aviasiya ilə əlaqədar bütün sahələrdə beynəlxalq əməkdaşlığın koordinatoru rolunda çıxış edir.
8. ***Beynəlxalq Dəniz Təşkilatı***. Beynəlxalq dəniz gəmiçiliyi prosedurlarının təkmilləşdirilməsinə, dəniz gəmiçiliyinin təhlükəsizlik səviyyəsinin yüksəldilməsinə dəstək verir və gəmilərdən dənizin çirklənməsinin aradan qaldırılması məqsədilə səylər göstərir.
9. ***Beynəlxalq Elektrik Əlaqəsi İttifaqı***. Bütün növ elektrik əlaqələrinin təkmilləşdirilməsi məqsədilə beynəlxalq əməkdaşlığın inkişafına dəstək verir, radio və televiziya tezliklərindən istifadəni koordinasiya edir, təhlükəsizliyin təmin edilməsi üçün tədbirlər və tədqiqatlar həyata keçirir.
10. ***Ümumdünya Poçt İttifaqı***. Poçt xidmətinin beynəlxalq normalarını müəyyən edir, texniki yardım təqdim edir və poçt xidmətləri sahəsində əməkdaşlığın inkişafına dəstək verir.
11. ***Ümumdünya Meteorologiya Təşkilatı***. Yerin atmosferinin və iqlim dəyişikliklərinin öyrənilməsi ilə əlaqədar elmi tədqiqatları stimullaşdırır, meteorologiya göstəriciləri ilə ümumdünya mübadiləsinə dəstək verir.
12. ***Ümumdünya Əqli Mülkiyyəti Təşkilatı***. Əqli mülkiyyətin beynəlxalq müdafiəsini stimullaşdırır, müəllif hüquqları, ticarət nişanları, sənaye nümunələri və patentlərinə aid məsələlərdə əməkdaşlığın inki.afına dəstək verir.
13. ***Beynəlxalq Kənd Təsərrüfatı İnkişafı Fondu***. Ərzaq istehsalının artırılması və inkişaf etməkdə olan ölkələrdə əhalinin yoxsul qruplarının qidalanması vəziyyətinin yaxşılaşdırılması məqsədilə maliyyə resurslarının mobilizasiyası ilə məşğul olur.
14. ***Birləşmiş Millətlərin Sənaye İnkişafı Təşkilatı (YUNİDO)***. Texniki yardım və məsləhət xidmətlərinin göstərilməsi, kadrların hazırlanması yolu ilə inkişaf etməkdə olan ölkələrin sənaye inkişafına dəstək verir.

## 8.4. Birləşmiş Millətlər Təşkilatı çərçivəsində iqtisadi əməkdaşlıq: əsas istiqamətlər və orqanlar sistemi

Yarım əsrdən artıqdır ki, beynəlxalq ictimaiyyət dünya iqtisadiyyatında mövcud olan problemləri BMT və onun mexanizmləri vasitəsilə həll etməyə çalışır. BMT-nin 50 illik fəaliyyət praktikasının təhlili belə bir nəticə çaxarmağa imkan verir ki, dünya siyasi problemlərinin rolunun artması ilə yanaşı, BMT-nin fəaliyyətində iqtisadi aspektlər də mühüm yer tutur. Bu ilk növbədə BMT-nin iqtisadi funksiyalarının genişlənməsində özünü göstərir. Dünya təsərrüfatının, beynəlxalq iqtisadi münasibətlərin bütün yeni sahələri onun təhlil predmeti olur, problemlərin həlli üçün tövsiyələr verilir, qərarların yerinə yetirilməsi üçün vasitələr təmin edilir. Bununla paralel olaraq BMT özünün strukturu dəyişir, iqtisadi təsisatların və bu təsisatlarda iştirak edən ölkələrin sayı artır, təsisatların fəaliyyət sahəsi, onların digər beynəlxalq, həmçinin milli institut və təşkilatlarla əlaqələri genişlənir.

Dünya iqtisadiyyatında və beynəlxalq əmək bölgüsündə baş verən proseslərin mürəkkəbləşməsi, beynəlxalq təsərrüfat həyatının dinamizmi ilə əlaqədar BMT-nin iqtisadi fəaliyyətinin əhəmiyyəti daha da artır. Bütün bunlar sürətli və səmərəli qərarlar qəbul edilməsini zəruri edir.

Iqtisadi fəaliyyəti həyata keçirməklə BMT ilk növbədə siyasi təşkilat olaraq qalır. Siyasi xarakter əsas prinsiplərin izahında və tətbiqində, dünya iqtisadiyyatının müxtəlif problemlərinə yanaşmada və onların həlli yollarının işlənməsində özünü aydın surətdə göstərir.

BMT Nizamnaməsinin 1-ci maddəsində qısa şəkildə də olsa beynəlxalq əməkdaşlığın, o cümlədən iqtisadi əməkdaşlığın məqsədləri formalaşdırılmışdır. Nizamnamənin bir sıra digər maddələri də bilavasitə iqtisadi əməkdaşlıq məsələlərinə toxunur. IX fəsil isə bütövlüklə beynəlxalq iqtisadi və sosial əməkdaşlığa həsr edilib. Belə ki, maddə 55-də qeyd olunur ki, millətlər arasında, xalqların hüquq bərabərliyi və özünümüəyyənetmə prinsipinə hörmət əsasında sülh və dostluq münasibətləri üçün zəruri olan sabitlik və əmin-amanlıq şəraitini yaratmaq məqsədilə, Birləşmiş Millətlər:

- həyat səviyyəsinin artırılmasına, əhalinin tam məşğulluğuna, iqtisadi və sosial tərəqqi və inkişaf şəraitinə;
- iqtisadi, sosial, səhiyyə və yanaşı sahələrdə beynəlxalq problemlərin həllinə; mədəniyyət və təhsil sahələrində beynəlxalq əməkdaşlığa və

- irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hamılıqla hörmət edilməsinə və riayət edilməsinə dəstək verirlər.

Maddə 56-ya görə, təşkilatın bütün Üzvləri öz üzərlərinə öhdəlik götürürlər ki, 55-ci maddədə göstərilmiş məqsədlərə nail olmaq üçün təşkilatla əməkdaşlıqda birgə və müstəqil hərəkət etsinlər.

Maddə 57-də göstərilir ki, dövlətlərarası sazişlər əsasında yaradılmış və üzərlərinə, onların təsis aktlarında müəyyən olunduğu kimi, iqtisadi, sosial, mədəni, təhsil, səhiyyə və yanaşı sahələrdə geniş beynəlxalq məsuliyyət qoyulmuş müxtəlif ixtisaslaşdırılmış təsisatlar Birləşmiş Millətlərlə əlaqəyə gətirilir.

Maddə 58-ə görə, təşkilat ixtisaslaşdırılmış təsisatların siyasətini və fəaliyyətini əlaqələndirmək üçün tövsiyələr edir.

Maddə 59-da qeyd olunur ki, təşkilat, əgər buna lüzum varsa, 55-ci maddədə göstərilmiş məqsədlərin həyata keçirilməsi üçün tələb olunan hər hansı yeni ixtisaslaşdırılmış təsisatların yaradılması barədə maraqlı dövlətlər arasında danışıqların başlanmasına təşəbbüs edir.

Maddə 60-da vurğulanır ki, təşkilatın bu fəsildə göstərilmiş funksiyalarının icrasına görə məsuliyyət Baş Məclisin və onun rəhbərliyi altında fəaliyyət göstərən İqtisadi və Sosial Şuranın üzərinə qoyulur.

Nizamnamədə iqtisadi əməkdaşlığın xüsusi prinsipləri müəyyən edilməsə də maddə 2-də müəyyən edilmiş beynəlxalq əməkdaşlığın ümumi prinsiplərini tam olaraq iqtisadi problemlər üzrə əməkdaşlıq sferasına da aid etmək olar.

BMT-nin iqtisadi fəaliyyəti özündə dörd əsas istiqaməti əks etdirir:

- bütün ölkələr üçün ümumi olan qlobal iqtisadi problemlərin həlli;
- müxtəlif sosial-iqtisadi inkişaf səviyyələrinə malik ölkələrin iqtisadi əməkdaşlığına dəstək;
- inkişaf etməkdə olan ölkələrin təsərrüfat artımına dəstək;
- regional iqtisadi inkişaf problemlərinin həlli.

Praktikada bu istiqamətlər üzrə iş aşağıdakı fəaliyyət formalarından istifadə etməklə aparılır.

**İnformasiya fəaliyyəti** BMT-nin ən geniş yayılmış iş növüdür. Maraq doğuran məsələlər siyasi müzakirələrin gündəliyinə çıxarılır, yazılı hesabatlar hazırlanır və s. bu fəaliyyətin məqsədi üzv ölkələrin iqtisadi siyasətlərinə ümumi təsir göstərməkdir. Böyük ölçüdə bu iş “gələcək üçün”

aparılan işdir. Müxtəlif tipli çoxlu informasiyalar, statistik hesabatlar dərc edilir. Ilkin statistik göstəricilərin unifikasiyası, yığılması və emalı ilə Statistika Komissiyası məşğul olur. Hesabat sistemi və statistika sahələrində fəaliyyət zəif inkişaf etmiş ölkələr üçün kifayət qədər faydalı mənfəətlidir. Belə ki, bu ölkələrdə çox zaman iqtisadi düzgün statistika metodları olmur. Digər tərəfdən, xarici təsərrüfat subyektləri bu ölkələrin bazarlarına girməyə səy göstərərkən onların iqtisadiyyatları barədə real informasiyanı bu mənbələrdən alırlar.

BMT-nin **texniki-məsləhət fəaliyyəti** ehtiyacı olan ölkələrə texniki yardım göstərilməsi formasında həyata keçirilir. Bu cür yardım göstərilməsinin prinsipləri hələ 1948-ci ildə müəyyən edilmişdir:

- texniki yardım daxili işlərə xarici iqtisadi və siyasi müdaxilə vasitəsi rolunu oynamamalıdır;
- texniki yardım ancaq hökumətlər vasitəsilə həyata keçirilməlidir;
- texniki yardım ancaq bu ölkəyə təqdim edilməlidir;
- texniki yardım mümkün qədər ehtiyacı olan ölkənin arzu etdiyi formada təqdim edilməlidir;
- texniki yardım keyfiyyət və texniki baxımdan yüksək tələblərə cavab verməlidir.

**Büdcə-maliyyə fəaliyyəti** adətən BMT sisteminə daxil olan beynəlxalq təşkilatların (Dünya Bankı Qrupu, Beynəlxalq Valyuta Fondu) xətti vasitəsilə həyata keçirilir.

BMT çərçivəsində iqtisadi əməkdaşlıq orqanları sisteminin əsas struktur bölmələri BMT-nin altı əsas orqanından üçü – Baş Məclis, İqtisadi və Sosial Şura və Katiblik hesab edilirlər. Bu orqanlar barədə daha əvvəl geniş şəkildə məluçat verildiyi üçün burada təkrarçılığa yol verməyəcəyik.

BMT-nin bir sıra digər orqanları da beynəlxalq iqtisadi münasibətlər sistemində aktiv fəaliyyət göstərirlər.

BMT Baş Məclisi 1964-cü ilin sonunda **Ticarət və İnkişaf üzrə Konfransı (YUNKTAD)** təsis edən qətnamə qəbul etmişdir. Bu qətnaməyə görə, YUNKTAD BMT təşkilatıdır, lakin beynəlxalq ticarət təşkilatı deyil. konfransın işində demək olar ki, BMT-nin bütün üzvləri və bir sıra beynəlxalq təşkilatlar iştirak edirlər. YUNKTAD-ın ali orqanı sessiya və Ticarət və İnkişaf üzrə Şuradır. Sessiya dörd ildə bir dəfə keçirilir. Şura iki ildə bir dəfə yığışır. Cari fəaliyyət işçi komitə və katiblik tərəfindən həyata keçirilir. Təşkilatın mənzil-qərargahı Cenevrədə yerləşir.

Indiyə qədər YUNKTAD-ın 11 sessiyası keçirilmişdir. Bunlar aşağıdakılardır: Cenevrə (1964), Dehli (1968), Santyaqo (1972), Nayrobi (1976), Manila (1979), Belqrad (1983), Cenevrə (1987), Kartahen (1992), Midrand (1996), Banqkok (2000), San-Paolo (2004).

YUNKTAD-ın əsas vəzifələri aşağıdakılardır:

- beynəlxalq ticarətin inkişafına dəstək, sabit sülhün və dövlətlər arasında bərabərhüquqlu əməkdaşlığın təmin edilməsi;
- müasir beynəlxalq iqtisadi münasibətlər sahəsində tövsiyələrin, prinsiplərin, təşkilati-hüquqi şərtlərin və funksiya mexanizmlərinin işlənməsi;
- BMT sisteminin iqtisadi inkişaf sahəsində digər təşkilatlarının fəaliyyətinin koordinasiyasında iştirak, təsərrüfat əlaqələrinin qurulması və beynəlxalq ticarətin stimullaşdırılması.

YUNKTAD xammal, hazır məhsul və yarımfabrikatlarla beynəlxalq ticarət, nəqliyyat, xarici ticarətin sığortalanması və kreditləşdirilməsi, texnologiyaların ötürülməsi və s. sahələrdə məsələ və problemlərin geniş dairəsini nəzərdən keçirir. YUNKTAD və onun orqanlarının qərarları qətnamə, bəyanat formasında olur və hüquqi cəhətdən məcburi olmur.

YUNKTAD-ın işi əsasən üç istiqamətdə qurulur:

1. Dörd ildə bir dəfə keçirilən YUNKTAD konfranslarında, həmçinin Ticarət və İnkişaf üzrə Şuranın illik iclaslarında üzv-ölkələrin nümayəndələri tərəfindən gündəlikdə duran aktual məsələlərin müzakirəsi və danışıqların aparılması. Bu cür danışıqların nəticəsi olaraq, müxtəlif qətnamələr, bəyannamələr və digər rəsmi sənədlər işlənir və bu sənədlərdə danışıqlarda konkret məsələlər üzrə əldə edilmiş siyasi konsensus öz əksini tapır.
2. İnformasiya-analitika işi. Bu zaman danışıqlarda iştirak edən nümayəndələr üçün icmallar və digər materiallar hazırlanır, tədqiqatlar həyata keçirlir, nüvafiq tövsiyələr və təkliflər verilir.
3. İnkişaf etməkdə olan ölkələr, son illərdə isə keçid iqtisadiyyatlı ölkələr üçün texniki yardım proqramlarının hazırlanması və həyata keçirilməsi.

YUNKTAD-ın fəaliyyətinin vacib nəticəsi kimi 1992-ci ildə Kolumbiyanın Kartahen şəhərində keçirilmiş 8-ci sessiyada qəbul edilmiş “Kartahen öhdəlikləri”ni göstərmək olar. Bu sənəddə qeyd edilir ki, YUNKTAD-ın fəaliyyətinin hərəkətverici qüvvəsi müxtəlif regionlardan olan və inkişaf səviyyələrinə malik olan ölkələrin qarşılıqlı maraqlarının tanınmasıdır. Konfransın

siyasi tövsiyələri sırasında inkişaf məsələləri üzrə (xüsusilə milli və beynəlxalq səviyyələrdə "optimal idarəetmə" sahəsi üzrə), bazar məsələləri və onun iqtisadi inkişafın məqsədlərinin reallaşdırılmasında rolu üzrə, yoxsulluq probleminin yüngülləşdirilməsi məsələləri üzrə, insan resurslarının inkişafı məsələləri üzrə, inkişafın əhəmiyyətli amilləri kimi demokratiya və insan haqları məsələləri dialoqun keçirilməsi təkliflərini göstərmək olar. Ticarət və ekologiya arasında qarşılıqlı əlaqənin nəzərə alınması ilə "dayanıqlı inkişaf"ın təmin edilməsinin zəruriliyi xüsusi olaraq qeyd edilib.

1996-cı ildə Midrandda (CAR) keçirilən 9-cu sessiya "dünya iqtisadiyyatının qloballaşması və liberallaşması şəraitində artıma və dayanıqlı inkişafa dəstək" mövzusuna həsr edilmişdi və YUNTAD-ı inkişaf etməkdə olan ölkələrin (xüsusilə daha az inkişaf etmişlərin), həmçinin keçid iqtisadiyyatlı ölkələrin beynəlxalq iqtisadi sistemə daha tam inteqrasiyası üçün dəstək verməyə istiqamətləndirdi. Konfrans "Artım və inkişaf məqsədilə partnyorluq" adlı yekun sənəd qəbil etdi. Sənəddə yuxarıda göstərilən məsələlərlə yanaşı, qloballaşma proseslərinin müxtəlif iqtisadi inkişaf səviyyələrinə malik ölkələrə fərqli təsirləri qeyd olunur və inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında, inkişaf etməkdə olan ölkələrin özlərinin arasında, həmçinin inkişaf proqramlarının həyata keçirən ölkələrin dövlət və özəl sektorları arasında sıx əməkdaşlığın vacibliyi vurğulanırdı.

Midrand sessiyasında həmçinin qeyd edilmişdi ki, müəyyən mənada YUNKTAD heç də yaxşı günlərini yaşamır. Belə ki, YUNKTAD və ÜTT arasında müəyyən mənada ziddiyyətlər mövcuddur. ÜTT ticarət siyasətinin qlobal məsələlərini həll etsə də heç də bütün dövlətlər bu təşkilatın üzvü deyillər. Bununla yanaşı, YUNKTAD-da olan bürokratik sistem dünya ticarətinin mürəkkəb məsələlərini səmərəli həll etməyə imkan vermir. Lakin, Midrandda belə bir qərara gəlindi ki, dünya ictimaiyyəti hələ ki YUNKTAD-a ehtiyac duyur. Bu təşkilat universal xarakter kəsb edir və inkişaf kontekstində ümumi ticarət-siyasi prinsiplərin işlənməsi ilə məşğul olmalıdır. ÜTT isə sırf ticarət məsələlərini həll etməlidir.

2000-ci iln fevralında Banqkokda (Tailand) keçirilən 10-cu sessiya zamnı qəbul ediln bəyannamədə əsasən qloballaşmanın doğurduğu nəticələrə (bu prosesin iqtisadi inkişaf müsbət və mümkün mənfi təsirləri) diqqət yetirilirdi. Qəbul edilən sənədin ümumi məğzi bundan ibarətdir ki, qloballaşma iqtisadi artım və inkişaf üçün güclü və dinamik qüvvədir, lakin ona müəyyən dərəcədə təsir edilməlidir ki, o, "beynəlxalq səviyyədə uzunmüddətli və balanslaşdırılmış artımın

əsasını qoysun". Bununla əlaqədar, Banqkok konfransının iştirakçıları milli səviyyələrdə həyata keçirilən siyasətlə beynəlxalq səviyyədə həyata keçirilən siyasi tədbirlər arasında daha dolğun razılaşdırmanın təmin edilməsinin vacibliyini qeyd edirdilər. Bu ilk növbədə, milli hökumətlər tərəfindən həyata keçirilən makroiqtisadi və sahələr üzrə siyasətlərə və beynəlxalq təşkilatlar, agentliklər və iqtisadi qruplaşmalar tərəfindən həyata keçirilən siyasətlərə aiddir. Fəaliyyətinin çoxtərəfli əsasda quran müxtəlif beynəlxalq institutların işlərinin daha səmərəli koordinasiyası da vacib məsələdir.

2004-cü ilin iyununda Sao-Paoloda (Braziliya) keçirilən 11-ci sessiya iqtisadi artım və inkişaf məqsədilə milli inkişaf strategiyaları və qlobal iqtisadi proseslər arasında ardıcıllığın genişləndirilməsi mövzusunda həsr edilmişdi. Bu mövzudan çıxış edilərək sessiya zamanı ticarət, investisiya, maliyyə, texnologiya və inkişafla əlaqədar digər mövuzlar üzrə dəyirmi masalar təşkil edilib. Müzakirələr zamanı ticarətin inkişaf məqsədlərinə xidmət etməsinin təmin edilməsi yolları diqqət mərkəzində olub və istehsal sektorunda rəqabət qabiliyyətliliyin artırılması məsələsinin vacibliyi vurğulanıb.

YUNKTAD-ın fəaliyyətinin nəticələrini xarakterizə edərək, qeyd etmək lazımdır ki, təşkilatın bir çox qərarları və sənədləri tövsiyə xarakterli olublar. Bununla belə, YUNKTAD konkret və praktiki əhəmiyyətli nailiyyətlər də əldə edib. Onlar sırasında şağıdakıları göstərmək olar:

1. Ümumi imtiyazlar sistemi haqqında saziş (1971-ci il). Inkişaf etməkdə olan ölkələr tərəfindən sənayecə inkişaf etmiş ölkələrə güzəştli ixrac rejimini nəzərdə tutur (ildə təxminən 70 milyard dollar məbləğində).
2. Məhdudlaşdırıcı işgüzar praktikaya nəzarət üzrə şoxtərəfli əsasda razılaşdırılmış prinsiplər və qaydalar haqqında saziş (1980-ci il).
3. İnkişaf etməkdə olan ölkələr arasında ticarət imtiyazlarının qlobal sistemi haqqında saziş (1989-cu il).
4. Beynəlxalq əmtəə (kakao, şəkər, kauçuk, cutu və cutu məhsulları, tropik ağaclar, buğda) sazişləri. Bu sazişlər əsasında müvafiq beynəlxalq təşkilatlar fəaliyyət göstərirlər. Bir sıra əmtəə sazişləri xammal əmtəələri üçün inteqrasiya edilmiş proqramın (XƏİP) reallaşdırılması zamanı imzalanıblar. Bu proqramın işlənməsi barədə qərar 1976-ci ildə qəbul edilib.

5. Xammal əmtəələri (dəmir filizi, volfram, nis, nikel) üzrə hökumətlərarası tədqiqat qrupları. Bu qrupların işində həm istehsalçı, həm də istehlakçı ölkələr iştirak edirlər.
6. XƏİP-in reallaşdıırlması məqsədilə xammal əmtəələri üçün Ümumi Fondun yaradılması (1989-cu il). Bu fond beynəlxalq bufer xammal ehtiyatlarının (bu ehtiyatlar bazarın sabitləşdirilməsi və qiymətlərin tarazlaşdırılması üçün istifadə edilir) yaradılmasını, ayrı-ayrı xammal əmtəələri üzrə tədqiqatların həyta keçirilməsini maliyyələşdirir.
7. İnkişaf etməkdə olan ölkələrin borclarının ödənməsi şərtlərinin yüngülləşdirilməsi haqqında saziş. 50-dən artıq inkişaf etməkdə olan ölkə borclanmadan azad olma imkanından istifadə etmişlər. Bu məbləğ 6,5 milyard dollar təşkil edib.
8. Borcun restrukturizasiyası sahəsində beynəlxalq hərəkətlərin rəhbər prinsiplərinin işlənməsi (1980-ci il).
9. Daha az inkişaf etmiş ölkələr üçün tədbirlər proqramı üzrə iki saziş (1981 və 1990-cu illər).
10. BMT-nin dəniz nəqliyyatı sahəsində konvensiyalarının işlənməsi: xətti gəmiçilikdə davranış qaydaları haqqında (1974-cü il), beynəlxalq dəniz yük daşımaları haqqında (1980-ci il), beynəlxalq qarışıq yük daşımaları haqqında (1980-ci il), gəmilərin qeydiyyatı şərtləri haqqında (1986-cı il), saxlama və ipoteka girovu dəniz hüququ haqqında (1993-cü il).

YUNKTAD-ın fəaliyyətinin əsas istiqamətlərindən biri də tarnsmilli şirkətlər üzrə proqramın reallaşdırılması çərçivəsində görülən işdir. Bu Proqram YUNKTAD tərəfindən 1993-cü ildən etibarən investisiyalar, texnologiyalar və müəssisələrin inkişafı şöbəsi vasitəsilə yerinə yetirlir. YUNKTAD çərçivəsində həmçinin investisiyalar, texnologiyalar, maliyyə məsələləri üzrə Komissiya da fəaliyyət göstərir.

Beynəlxalq iqtisadi münasibətlərin çoxtərəfli tənzimlənməsi sisteminin formalaşmasına və inkişafına BMT-nin 14 ixtisaslaşmış təsisatı da müəyyən təsir göstərir. Bu təşkilatların əksəriyyəti barəsində əvvəlki mövzularda geniş məlumat verildiyindən burada yalnız onların bəzilərinin fəaliyyətinə toxunulacaqdır.

**Birləşmiş Millətlərin Sənaye İnkişafı üzrə Təşkilatı (YUNİDO)** BMT-nin ixtisaslaşmış təsisatı olmaqla inkişaf etməkdə olan ölkələrin sənayeləşməsinə dəstək məqsədilə yaradılıb. Bu təşkilat milli və beynəlxalq resursların mobilizasiyası yolu ilə inkişaf etməkdə olan ölkələrin sənaye inkişafına nail olmaq istəyir. YUNİDO 1966-cı ildə yaradılıb. Ali orqanı iki ildə bir dəfə

çağrılan Baş Konfransdır. YUNİDO-nun rəhbər orqanları Sınaye İnkişafı Şurası və Proqram və Büdcə məsələləri üzrə Komitədir. YUNİDO-nun mənzil-qərargahı Vyanada yerləşir.

YUNİDO-nun fəaliyyəti şərti olaraq əməliyyat və köməkçi fəaliyyətlərinə bölünür. BMT-nin Baş Məclisinin qətnamələrindən çıxış edərək YUNİDO-nun əməliyyat fəaliyyətinə aşağıdakılar aiddir:

- siyasi, iqtisadi, maliyyə vəziyyətlərinin, texniki amillərin nəzərə alınması ilə sənayeləşmə proqramlarının hazırlanmasında ölkələrə tövsiyələr verilməsi və konkret yardım göstərilməsi;
- inkişaf etməkdə olan ölkələrdə istehsalın idarəedilməsi məsələləri üzrə təsisatların və orqanların yaradılması və gücləndirilməsi;
- sənaye obyektlərinin əsaslnadırılması üzrə elmi-tədqiqat işlərinin təşkili və həyata keçirilməsi;
- konkret layihələrin həyata keçirilməsində texniki yardım göstərilməsi, xammal resurslarından istifadədə tövsiyələrin verilməsi və s.

Köməkçi fəaliyyət özündə informasiyanın yığılması, ümumiləşdirilməsi, nəşr edilməsi və yayılmasını, hesabatların nəşr edilməsini və s.-ni əks etdirir.

YUNİDO Sənaye və Texnologiya İnformasiyası Bankına malikdir və onun fəaliyyətini və milli və regional səviyyəlrdə digər banklarla əlaqəsini təmin edir. Inkişaf etməkdə olan ölkələr bu bank vasitəsilə elmi-texniki xarakterli unformasiyaya çıxış əldə edirlər ki, bu da real yardımdır.

1986-cı ildən etibarən YUNİDO BMT sisteminin ixtisaslaşmış təsisatı statusunu əldə edib. Bu, inzibati, maliyyə, kadr müstəqilliyinin təşkilati məsələlərinə toxunsa da, onun fəaliyyətinin mahiyyətini, məqsədlərini, prinsiplərini və istiqamətlərini dəyişməyib. Hazırda YUNİDO özünün müntəzəm büdcəsinə malikdir. Bu büdcə üzvlük haqları hesabına formalaşır və əsasən katibliyin fəaliyyətinin maliyyələşdirilməsi üçün istifadə edilir. Əməliyyat fəaliyyətinin maliyyələşdirilməsi BMT-nin İnkişaf Proqramının, YUNİDO-nun Sənaye İnkişafı Fondunun, üzv-dövlətlərin könüllü üzvlük haqılarının hesabına həyata keçirilir.

**BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO)** BMT-nin ixtisaslaşmış təsisatıdır. Onun vəzifəsi kənd təsərrüfatı məsələləri üzrə fəaliyyət göstərən hökumətlərarası təşkilatların fəaliyyətini, həmçinin fərdi və kollektiv səyləri koordinasiya etməkdir. Buradan məqsəd əhalinin

kənd təsərrüfatı məhsulları ilə təmin edilməsini yaxşılaşdırmaqdır. FAO 1945-ci ildə yaradılmışdır, ali orqanı iki ildə çağrılan Konfransdır. Mənzil-qərargahı Romada yerləşir.

FAO-nun əsas vəzifələrindən biri inkişaf etməkdə olan ölkələrə kənd təsərrüfatı, meşə və balıqçılıq təsərrüfatı sahələrində yardımın göstərilməsidir. FAO çərçivəsində yardım həm maddi, həm də qeyri-maddi xarakter kəsb edir. Inkişaf etməkdə olan ölkələrə ərzaq göndərilir, kənd təsərrüfatı istehsalının inkişafında, kadrların hazırlanmasında, tövsiyələrin işlənməsində və s.-də texniki yardım göstərilir.

YUNİDO və FAO BMT-nin ixtisaslşamış təsisatı statusuna malik olsa da, BMT-nin digər institutu **Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP)** BMT-nin Baş Məclisinin köməkçi orqanıdır. BMTİP inkişaf etməkdə olan ölkələrə iqtisadiyyatın mühüm sahələrində çoxtərəfli texniki və investisiya qoyuluşlarına hazrılıq yardımı gəstərir. 1965-ci ildə yaradılmış BMTİP-in rəhbər orqanı Direktorlar Şurasıdır. Bu şura 3 il müddətinə seçilən 48 hökumət nümayəndələrindən ibarət olur. Şuranın ildə iki dəfə sessiyası keçirilir, onlar arasındakı müddətdə isə təşkilatın fəaliyyətinə Nyu-Yorkda yerləşən Katiblik rəhbərlik edir.

BMTİP-in yardımı könüllü üzvlük haqıları hesabına maliyyələşdirlir. Bu yardım yalnız hökumətlər vasitəsilə həyata keçirilir. 1990-cı illərin sonuna BMTİP-in 140-a yaxın ölkədə bölmələri var idi ki, bu bölmələr də 180 ölkəyə xidmət göstərirdi. Hazırda Direktorlar Şurasının çağırışı ilə BMTİP öz fəaliyyətini əsasən altı istiqamətə yönəltmişdir: yoxsulluqla mübarizə; idarəetmə fəaliyyətinin inkişaf etdirilməsi; inkişaf etməkdə olan ölkələr arasında texniki əməkdaşlıq; ətraf mühit və təbii resurslardan rasional istifadə; qadınların inkişafda iştirakı; inkişaf məqsədli texnologiyalar.

İqtisadi və Sosial Şura tərəfindən koordinasiya edilən və bu Şuranın qətnamələrinə uyğun olaraq yaradılmış məhəlli region iqtisadi komissiyaları BMT çərçivəsində iqtisadi əməkdaşlıq orqanları arasında xüsusi blok təşkil edir.

**Avropa İqtisadi Komissiyası** (AİK) 1947-ci ildə BMT-nin müvəqqəti orqanı kimi 5 il müddətinə yaradılmış və qarşısına müharibədən sonrakı Avropanın iqtisadi inkişafına yardım etmək məqsədi qoyulmuşdu. 1951-ci ildən AİK BMT-nin daimi orqanı statusunu almışdır. Hazırda 55 üzvü var. AİK-in rəhbər orqanı növbəti illik sessiyadır, katibliyi Cenevrədə yerləşir. AİK ticarət inkişafına, elmi-texniki əməkdaşlığa yardım göstərir. AİK-in tərkibində 15-ə yaxən sahəvi komitələr (kənd təsərrüfatı, kimya və s. üzrə) vardır. Son illərdə AİK öz diqqətini əsasən

ekologiya problemlərinə, xüsusilə də transsərhəd ekologiya problemlərinə, enerjidən səmərəli istifadə məsələsinə, ekologiya nöqteyi-nəzərindən nəqliyyat sahəsinə və meşə resursları məsələsinə yönəldib.

**Afrika İqtisadi Komissiyası** (AFİK) 1958-ci ildə Afrika qitəsinin inkişaf problemlərinin öyrənilməsi və təhlilində Afrika xalqlarına yardım məqsədilə yaradılıb. 53 ölkə komissiyanın üzvüdür. AFİK bu regionun iqtisadi inkişafı üzrə tədbirlər işləyir, üzv-dövlətlərin sorğularına əsasən məsləhət xidmətləri göstərir. Ali orqan AFİK-in illik sessiyalarıdır. Onlar arasında rəhbərlik isə İcra Komitəsi vasitəsilə həyata keçirilir. AFİK dörd subregional bölməyə malikdir: Şimali Afrika üçün Tanjer şəhərində (Mərakeş), Qərbi Afrika üçün Nimaye çəhərində (Niger), Şərqi Afrika üçün Lusaka şəhərində (Zambiya) və Mərkəzi Afrika üçün Kinşasa şəhərində (Zair). Son illərdə AFİK bölgə dövlətlərinə məsləhət texniki xidmətləri çərçivəsində quraqlıqla mübarizə sahəsində, irriqasiya sahəsində layihələrin yaradılmasında, kadrların hazırlanmasında yardımlar göstərmişdir.

**Latın Amerikası və Karib hövzəsi İqtisadi Komissiyası** (LAKİK) 1948-ci ildə yaradılmışdır. Ali orqanı iki ildə bir dəfə çağrılan sessiyadır. Sessiyalar arasında komissiyanın işini bütün 55 üzv ölkənin nümayəndələrinin daxil olduğu Komitə aparır. Yeri gəlmişkən, LAKİK-ə təkcə Latın Amerikası və Karib hövzəsi ölkələri deyil, həm də ABŞ, Kanada, Böyük Britaniya, Fransa, Hollandiya, ispaniya da üzvdürlər. LAKİK-in tərkibində daimi orqanlar – Mərkəzi Amerika ölkələrinin İqtisadi Əməkdaşlıq Komitəsi, Karib hövzəsi ölkələrinin İnkişaf və Əməkdaşlıq Komitəsi, Ticarət Komitəsi, Hökumət ekspertləri Komitəsi fəaliyyət göstərir. LAKİK-in əsas iş istiqamətləri yuxarıda qeyd olunan komissiyaların iş istiqamətləri ilə demək olar ki, eynidir.

**Asiya və Sakit Okean İqtisadi və Sosial Komissiyası** (ASOİSK) 1947-ci ildə təsis edilmiş regional orqandır. Ali orqan illik sessiyadır. ASOİSK-in katibliyi Banqkokda yerləşir. Regionun əksər ölkələri, həmçinin ABŞ, Niderland, Böyük Britaniya, Fransa ASOİSK-in üzvüdürlər. 51 ölkə bu komissiyanın üzvüdür. Komissiyanın Dehlidə 1994-cü ildə keçirilən 50-ci sessiyasında Asiya-Sakiot Okean regionunda regional iqtisadi əməkdaşlığın gücləndirilməsi haqqında Bəyannamə qəbul edilmişdi ki, burada da regionun spesifikası nəzərə alınmaqla onun inkişaf yolları göstərilmişdi. Investisiya layihələri üzrə texnologiyaların ötürülməsi sahəsində regonal iqtisadi əməkdaşlıq üzrə tədbirlər proqramı çərçivəsində işlər aparılır. Region üçün

mühüm əhəmiyyət kəsb edən "Nəqliyyat və rabitə" proqramının və infrastrukturun inkişafı proqramının reallaşdırılmasında müəyyən nailiyyətlər vardır.

**Qərbi Asiya İqtisadi və Sosial Komissiyası** (QAİSK) 1974-cü ildə yaradılıb. Onun tərkibinə regionun 13 ölkəsi daxildir. Ali orqan iki ildə bir dəfə çağrılan plenar sessiyadır. QAİSK-in katibliyi bir sıra şöbələrdən – planlaşdırma, sənaye, kənd təsərrüfatı və digər şöbələrdən ibarətdir. Bu regionun ölkələrinin iqtisadi əməkdaşlığı bir çox ollarda mövcud siyasi vəziyyətlə müəyyən edilir. QAİSK-in qarşısında qoyduğu vəzifələr yuxarıda baxılanlarla demək olar ki, analogiya təşkil edir – regionda iqtisadi əməkdaşlıq üçün münbit şəraitin yaradılması, iqtisadi münasibətlərin gücləndirilməsi, texniki xarakterli tədqiqatların həyata keçirilməsi və s. 1994-cü ildə Əmmanda Komissiya yerinə yetirilmək üçün 5 tematik proqram qəbul edib:

- təbii resurslardan rasional istifadə və təbiətdən istifadənin idarə edilməsi;
- həyat səviyyəsinin yüksəldilməsi;
- iqtisadi inkişaf və əməkdaşlıq;
- regional əhəmiyyətli hadisələr və qlobal dəyişikliklər;
- xüsusi problemlər.

BMT dövlətlərin ümumdünya təşkilatı olsa da, onun mexanizmləri vacib əhəmiyyət kəsb edən qlobal problemlərin həlli üçün digər iştirakçıları da öz fəaliyyətinə cəlb etməyə imkan verir. BMT-nin fəaliyyətinə vətəndaş cəmiyyətinin müxtəlif elementləri – qeyri-hökumət təşkilatları, işgüzar sektor, peşəkar birliklər və assosiasiyalar cəlb edilirlər və onların BMT-nin işində iştirak masştabları getdikcə genişlənir. BMT həmçinin tədqiqat və akademik təşkilatlarla, gənclər qrupları və digər assosiasiyalarla da əməkdaşlığını aktivləşdirir.

BMT həmçinin inkişaf etməkdə olan ölkələr üçün qlobal bazarların açılması məqsədilə göstərilən səylərdə də aktiv surətdə iştirak edir. Baş katib ticarət danışıqlarının "inkişaf raundu"nu (bu raundun məqsədi varlı ölkələrdə istehsalçılara verilən ədalətsiz subsidiyaları aradan qaldırmaqdan və kasıb ölkələrin əməktutumlu ixrac əmtəələri üçün bazarların tam açılmasını təmin etməkdən ibarətdir) dəstəkləyən bəyanatla çıxış etmişdir. O, inkişaf etməkdə olan ölkələrdə özəl investisiyaların mobilizasiyası üçün tədbirlər görülməsinə çağırmışdır. 2001-2002-ci illərdə bu məsələlər üç ümumdünya konfranslarında – Ümumdünya Ticarət Təşkilatının dördüncü Nazirlər Konfransı (Doha, Qətər), İnkişafın Maliyyələşdirilməsi üzrə Beynəlxalq Konfrans

(Monterrey, Meksika), Dayanıqlı İnkişaf üzrə Yüksək Səviyyədə Ümumdünya Görüşü (Yohannesburq, Cənubi Afrika) – müzakirə edilmişdir.

Baş katib müntəzəm olaraq özəl sektorun nümayəndələri ilə məsləhətləşmələr keçirir, aparıcı sahibkarlar və müxtəlif sahibkar strukturlarının rəhbərləri ilə görüşür və BMT-nin qarşısına qoyduğu məqsədlərin əldə edilməsinə yardım üçün onlara müraciət edir.

BMT-nin fəaliyyəti bütün dünyada işgüzar dairələrin maraqlarına cavab verir. Həm işgüzar dairələr, həm də BMT iqtisadi artımın və sabitliyin genişlənməsində, yeni iş yerlərinin yaradılmasında və investisiya fəaliyyətinin stimullaşdırılmasında maraqlıdırlar. BMT-nin seçkilərin keçirilməsinə yardım, savadlılıq səviyyəsinin artırılmasına dəstək və xəstəliklərlə mübarizə kimi sahələrdə fəaliyyəti sabit, real funksiya göstərən demokratik cəmiyyətin qurulmasına xidmət edir. Bu fəaliyyət əslinə "yumşaq investisiyalar"dır ki, bu cür sərmayələr olmadan özəl sərmayələr gözlənilən nəticəni verməzdi.

BMT-nin ixracın genişləndirilməsinə yardım, ticarət maneələrinin aradan qaldırılması, vahid ticarət nişanlarının dəstəklənməsi və müəllif hüquqlarının müdafiəsi üzrə təşəbbüsləri bütün dünya üzrə işgüzar dairələrin maraqlarına cavab verir. BMT sistemi telekommunikasiya, aviasiya, gəmiçilik və poçt xidmətləri üzrə yexniki standartları müəyyən edir ki, bu da beynəlxalq əməliyyatların həyata keçirilməsini mümkün edir.

BMT-nin bazar islahatlarının həyata keçirilməsi, işgüzar əməliyyatların yüngülləşdirilməsi və qanunvericiliyin işlənməsi üzrə səyləri işgüzar dairələrin maraqlarına cavab verir və inkişaf etməkdə olan ölkələrə birbaşa xarici investisiyalar axınını stimullaşdırmağa imkan verir.

İsveçrənin Davos şəhərində hər il keçirilən Dünya İqtisadi Forumu zamanı 1999-cu il yanvarın 31-də BMT baş katibi dünya işgüzar dairələrinin liderlərini "Qlobal müqavilə"yə qoşulmağa və həm özlərinin korporativ praktikalarında, həm də müvafiq dövlət siyasətini dəstəkləmək yolu ilə insan haqlarının müdafiə edilməsinə, əmək standartlarına əməl edilməsinə və ətraf mühitin qorunmasına çağırmışdır. Baş katib işgüzar dairələrdən xahiş etmişdir ki:

- müəyyən təsirə malik olduqları sahələrdə beynəlxalq insan haqlarının müdafiəsini dəstkləsinlər və ona hörmət etsinlər;
- korporasiyalarının insan haqlarının pozulmasına aid olmamalarını təmin etsinlər;
- assosiasiyaların azadlığını və kollektiv danışıqlar hüququnu dəstəkləsinlər;
- uşaq əməyinin aradan qaldırılması səylərini dəstəkləsinlər;

- məşğulluq və peşə məsələlərində ayrı-seçkiliyin aradan qaldırılmasını dəstəkləsinlər;
- ekoloji problemlərin həllində ehtiyat prinsipinə əsaslanan yanaşmanı dəstəkləsinlər;
- ekoloji məsuliyyət səviyyəsinin artırılmasına səy göstərsinlər;
- ekoloji cəhətdən təhlükəsiz texnologiyaların işlənməsi və yayılmasını stimullaşdırsınlar.

Göründüyü kimi, bu müqaviləyə əsasən dünya iqtisadiyyatının liderləri insan haqları, əməyin müdafiəsi və ətraf mühitin qorunması sahələrində müəyyən normalara əməl etmək öhdəliyini üzərlərinə götürürlər. "müqavilə"ni Şomal və Cənubun yüzlərlə iri və kiçik şirkətləri, peşəkar birliklər və qeyri-hökumət təşkilatları imzalamışlar. "Müqavilə" çərçivəsində korporativ maliyyələşdirməyə, reklama və ya müəyyən şirkətlərin hər hansı formada təbliğinə icazə verilmir, BMT-nin simvolikasından istifadəyə isə ciddi surətdə nəzarət olunur.

Bir sıra unikal xüsusiyyətləri BMT-ni inkişafa dəstək planında xüsusilə səmərəli fəaliyyət göstərməyə imkan verir:

- onun universallığı: bütün ölkələr siyasət məsələləri üzrə əsas qərarlara təsir göstərmək imkanına malikdirlər;
- onun neytrallığı: BMT hər hansı milli və ya kommersiya maraqlarının təmin etmir, buna görə də o, ölkələrlə və bu ölkələrin xalqları ilə etibar münasibətlərini inkişaf etdirərək onlara hər hansı əlavə şərtlər olmadan yardım göstərir;
- onun qlobal iştirakı: inkişaf məqsədilə yardım göstərmək üçün BMT ölkə şöbələrinin iri şəbəkəsinə malikdir;
- onun hərtərəfli mandatı sosial, iqtisadi və fövqəladə ehtiyacları əhatə edir.

147 dövlətin rəhbərləri tərəfindən 2000-ci ilin sentyabrında qəbul edilmiş "Minilliyin İnkişaf Məqsədləri Bəyannaməsi"ndə sonrakı dövr üçün uzunmüddətli proqram müəyyən edilmişdir.

"Minillik Bəyannaməsi"ndə BMT-nin üzv-dövlətləri aşağıdakı sahələrdə məqsədləri müəyyən etmişlər:

1. **İfrat yoxsulluğu və aclığı aradan qaldırmaq**:
    - gündəlik gəliri bir dollardan aşağı olan insanların sayını yarıyadək azaltmaq;
    - aclıqdan əzab çəkən insanların sayını yarıyadək azaltmaq;
2. **Ümümi ibtidai təhsilə nail olmaq**:
    - bütün oğlan və qızların tam ibtidai təhsil almalarını təmin etmək;

3. **Gender bərabərliyini təmin etmək və qadınlara səlahiyyət vermək**:
   - əsasən 2005-ci ilədək ibtidai və orta təhsildə və 2015-ci ilədək təhsilin bütün səviyyələrində gender bərabərsizliyini aradan qaldırmaq;
4. **Uşaq ölümü hallarını azaltmaq**:
   - beş yaşınadək uşaqlar arasında ölüm hallarının mövcüd dərəcəsini üçdə iki dəfə azaltmaq;
5. **Ana sağlamlığını yaxşılaşdırmaq**:
   - ana ölümü hallarının dərəcəsini dörddə üç dəfə azaltmaq;
6. **HİV/AİDS, malyariya və digər xəstəliklərə qarşı mübarizə aparmaq**:
   - HİV/AİDS-in yayılmasını dayandırmaq və xəstəliyin azaldılması istiqamətində işin əsasını qoymaq;
   - malyariyanın və diqər irimiqyaslı xəstəliklərin yayılmasını dayandırmaq və bu xəstəliklərin azaldılması istiqamətində işin əsasını qoymaq;
7. **Ətraf mühitin davamlılığını təmin etmək**:
   - davamlı inkişaf prinsiplərini dövlət siyasəti və proqramlarına daxil etmək;
   - təmiz içməli suyu əldə edə bilməyən insanların sayını yarıyadək azaltmaq;
   - 2020-ci ilədək xarabalıqlarda yaşayan ən azı 100 milyon əhalinin həyat şəratinin yaxşılaşdırılması üçün əhəmiyyatli nailiyyətlər əldə etmək;
8. **İnkişaf üçün qlobal tərəfdaşlığı inkişaf etdirmək**:
   - qaydalara əsaslanan, nəzarət edilən və ayrıseçkiliyə yol verməyən açıq ticarət və maliyyə sisteminin yaradılmasını davam etmək (buna milli və beynəlxalq səviyyədə demokratik idarəçilik, inkişaf və Yoxsulluğun azaldılmasına dair öhdəliklər də aiddir);
   - ən zəif inkişaf etmiş ölkələrin xüsusi ehtiyaclarını ödəmək (buna həmin ölkələrin tərəfsız və kvotasız eksport imkanı əldə etmələri, həddən artıq borc altında olan yoxsul ölkələrin borcdan azad edilməri; ikitərəfli rəsmi borcların ləğv edilməsi; Yoxsulluğun azaldılması sahəsində çalışan ölkələrə daha geniş inkişaf yönümlü yardımın göstərilməsi məsələri daxildir);
   - inkişaf etməkdə olan dənizə çıxışı olmayan və kiçik ada dövlətlərinin xüsüsi ehtiyaçlarını ödəmək;

- borclarını uzun müddət ərzində ödənilə biləcək səviyyədə saxlayə bilməri üçün müxtəlif milli və beynalxalq tədbirlər vəsitəsilə inkişaf etməkdə olan ölkələrin borc problemləri ilə ətraflı şəkildə məşğul olmaq;
- inkişaf etməkdə olan ölkələrlə əməkdaşlıq şəratində gənclər üçün layiqlı və məhsuldar iş imkanları yaratmaq;
- farmaseptik şirkətlərə əməkdaşlıq şəraitində inkişaf etməkdə olan ölkələrdə əsas dərman preparatların asanlıqla əldə edilməsini təmin etmək;
- özəl sektorla əməkdaşlıq şəraitində ölkələrin, yeni texnologiyalardan, o cümlədən informasiya və kommunikasiya texnoloqiyalarından bəhrələnmək imkanı yaratmaq.

Bu məqsədlər 2015-ci ilin sonuna əldə edilməlidirlər.

BMT ətraf mühitin qorunması üzrə beynəlxalq səylərin avanqardı rolunda çıxış edir. BMT ətraf mühitin qorunması üzrə müqavilələrin bağlanmasını təmin edir. Bu müqavilələr 1980-ci illərdə gəmilərdən axan neft nəticısində çirklənməsi 60% azaltmağa, Şimali Amerika və Avropada ətraf mühitin transsərhəd çirklənməsini azaltmağa və həm sənayecə inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə ozon qatının dağılmasına gətirib çıxaran bir çox qazların istehsalının dayandırılmasına imkan vermişdir. 1972-ci ildə BMT-nin ətraf mühit üzrə birinci konfransının keçirilməsindən sonra BMT təsisatları və proqramlarının dəstəyi ilə 300-dən artıq beynəlxalq müqavilə və sazişlər imzalanmışdır. Bu beynəlxalq sənədlər itmək təhlükəsi altında olan heyvan və bitki növlərini, dəniz mühitinin çirklənməsinin, ozon təbəqəsinin dağılmasını, təhlükəli tullantıları, bioloji müxtəlifliyi, iqlimin dəyişməsini, səhralaşmanı, balıqçılıq təsərrüfatını, sənaye ximikatları və pestisidlərini əhatə etmişdir.

BMT-nini 1992-ci ildə Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilmiş ətraf mühit və inkişaf üzrə konfransında razılaşdırılmış “XXI əsr üçün gündəlik” ekoloji cəhətdən təhlükəsizn inkişafın hərtərəfli qlobal proqramı sayıla bilər. Bu gündəlik bir çox milli planların və yerli təşəbbüslərin əsasını təşkil etmişdir. 2002-ci ildə Cənubi Afrikanın Yohannesburq şəhərində keçirilmiş Dayanıqlı İnkişaf üzrə Yüksək Səviyyədə Ümumdünya Görüşü əlavə səylər və praktiki qərarların zəruri olduğu sahələri müəyyən etməyə, əlavə siyasi dəstəyi mobilizasiya etməyə imkan vermişdir.

BMT-nin ətraf mühit üzrə proqramı (YUNEP) ətraf mühitdən daha rasional istifadə edilməsi üçün ölkələrə köməklik göstərir, planetin ətraf mühitinin vəziyyətinin müşahidə edir və

beynəlxalq müqavilələr tədbirlər proqramlarının qəbul edilməsi məqsədilə konsensusun formalaşdırılmasına şərait yaradır.BMT-nin egidası altında yaradılmış texniki orqanlar ətraf mühitin vəziyyətini diqqətlə müşahidə edirlər. Məsələn, YUNEP-in iqlim dəyişkənliyi üzrə hökumətlərarası qrupu ümumdünya şəbəkəsi olmaqla özündə 120 ölkədən olan 1000-dən artıq aparıcı elm adamlarının birləşdirir və qlobal iqlim dəyişkənliyi üzrə biliklərin (onun səbəbləri, nəticələri, bu nəticələrin yüngülləşdirilməsi və onlara uyğunlaşma imkanları) vəziyyətinin qiymətləndirilməsini həyata keçirir. Ozon təbəqəsinə aid olan beynəlxalq müqavilələr çərçivəsində də analoji elmi-texniki orqanlar fəaliyyət göstərir. BMT rəhbərliyi altında həyata keçirilən ekoloji sistemlərin qiymətləndirilməsi layihəsində dünyanın 1500-dən artıq elm adamı iştirak edir və onlar Yerdə həyatı təmin edən prosesləri, xüsusilə çölləri, meşələri, çayları, gölləri və okeanları öyrənirlər. Bu qiymətləndirmə qərar qəbul edən şəxslərə planetin ekoloji sistemlərində baş verən dəyişikliklərin Yerdə həyata təsiri barədə etibarlı elmi informasiya əldə etməyə imkan verir. BMTİP, YUNEP və Dünya Bankı tərəfindən idarə edilən Qlobal Ekoloji Fond 150-dən artıq inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrdə iqlim dəyişkənliyi təhlükəsinin azaldılması üzrə, bioloji müxtəlifliyin qorunması və sabit istifadəsi üzrə, beynalxalq suların qorunması üzrə, ozon təbəqəsini dağıdan maddələrdən istifadənin dayandırılması üzrə fəaliyyətin həyata keçirilməsinə 3,5 milyard dolar ayırmış və müxtəlif mənbələrdən daha 8 milyard dollar mobilizasiya etmişdir.

### 8.5. Birləşmiş Millətlər Təşkilatının fəaliyyətinin təkmilləşdirilməsi problemləri

Beynəlxalq ictmaiyyətin iqtisadi əməkdaşlıq problemlərini BMT sistemi və mexanizmləri vasitəsilə həll etmək istiqamətində göstərdiyi səylərə baxmayaraq, həll edilməsi vacib olan bir sıra prinsipial məsələlər vardır. Bu məsələlərin həlli üçün ya müvafiq yanaşmalar tapılmayıb, ya qlobal xarakterli ayrı-ayrı amillər çətinaşılan maneələr yaradır, ya da onların həll edilməməsi qəbul olunmuş qərarların yerinə yetirilməsi mexanizminin az səmərəli olması ilə əlaqədardır.

Bununla əlaqədar, BMT-nin iqtisadi fəaliyyəti çərçivəsində qəbul edilmiş, lakin yerinə yetirilməmiş bir sıra iri təşəbbüsləri, sənədləri və qərarları xatırlatmaq məqsədəuyğun olardı. 1974-cü ildə BMT-nin Baş Məclisinin 6-cı Xüsusi Sessiyasında yeni iqtisadi qaydanın bərqərar edilməsi üzrə Bəyannamə və Tədbirlər Proqramı qəbul edilmişdi. Lakin, ötən müddət ərzində

proqramın həyata keçirilməsinin nəticələri yoxdur. 1975-ci ildə BMT Baş Məclisinin "İnkişaf və beynəlxalq iqtisadi əməkdaşlıq haqqında" qətnaməsində əks olunmuş inkişaf ideyaları planında qlobal probelmlər üzrə danışıqlara başlamaq cəhdləri də uğursuzluqla nəticələnib.

1960-cı ildə üç beynəlxalq inkişaf strategiyası (1960-1970-ci illər, 1970-1980-ci illər, 1980-1990-cu illər) qəbul edilmiş, lakin onların heç birində irəli sürülən məqsədlərə (ÜDM-nin, sənayenin, kənd təsərrüfatının, beynəlxalq ticarətin, iqtisadi yardımın artımı) tam çatılmamışdır. 1990-cu ildə BMT Baş Məclisinin iqtisadi məsələlər üzrə 18-ci Xüsusi Sessiyasında beynəlxalq iqtisadi əməkdaşlıq haqqında Bəyannamə qəbul edilmişdir. On ildən artıq bir vaxt keçməsinə baxmayaraq, bu sənədin müddəalarının həyata keçirilməsi barədə müsbət söz söyləmək mümkün deyildir.

Iqtisadi sahədə bir çox problemlərin həll edilməməsi BMT-nin avtoritetinin yüksəldilməsi məsələsini kəskin şəkildə gündəliyə çıxarır. BMT-nin sülh fəaliyyəti ümumilikdə tanınsa da, iqtisadi tərkib özünü daha zəif göstərir.

Son illərdə beynəlxalq iqtisadi münasibətlərdə baş verən dəyişikliklər BMT-nin 1960-cı, 1970-ci, 1980-ci illər sənədlərində əks edilmiş ideyaların həyata keçirilməsinə əhəmiyyətli təsir göstərmişdir. Sosialist dövlətlərinin Avropanın siyasi xəritəsindən yox olmaları, Qarşılıqlı İqtisadi Yardım Şurasının ləğvi iqtisadi arenada qüvvələr nisbətini dəyişdi. Sosialist ölkələri tərəfindən BMT-nin iri iqtisadi sənədlərinə salınmış ideyalara tələb yox olmuşdur.

Digər tərəfdən, mürəkkəb iqtisadi sənədlərin işlənməsi ilə məşğul olan BMT orqanlarının fəaliyyəti də bir sıra narazılıqlar doğurur. Belə ki, proqramların və layihələrin BMT təşkilatlarının və digər institutlarının real imkanları nəzərə alınmadan tərtib edildiyi, layihə və proqramların xərclər hissəsində real maliyyə şərtlərinin nəzərə alınmadığı bildirlir.

Bütün bunlar BMT-nin iqtisadi orqanlarının fəaliyyətinin səmərəliyinini artırılması üçün tədbirlər kompleksinin həyata keçirilməsini zəruri edir.

BMT öz işini "Minillik Bəyannaməsi"ndə, həmçinin qlobal konfranslarda müəyyən edilən prioritetlərə uyğun olaraq qurmalıdır. Öz aktuallığını itirən məsələlər üzrə fəaliyyətdən imtina edilməli, yeni məsələlər (qloballaşma və onun inkişaf üçün nəticələri, inkişaf sahəsində məqsədlərin reallaşdırılması, münaqişələrin qarşısının alınması və terrorizmlə mübarizə) üzrə isə BMT öz biliklərini dərinləşdirməli və öz fəaliyyətini daha məqsədyönlü və səmərəli etməlidir.

1997-ci ildən etibarən BMT-nin fəaliyyətində islahatlara start verilmişdir. Ilk addım olaraq yenidən təşkilatlanma işlərinə başlanılmış, BMT-nin departament, fond və proqramları dörd istiqamət (sülh və təhlükəsizlik, inkişaf, iqtisadi və sosial məsələlər, humanitar məsələlər) üzrə qruplaşdırılmışlar. Işin koordinasiyası üçün hər bir qrup üçün icra komitəsi təşkil edilmişdir. Eyni zamanda, 1996-cı ildə tutulmayan 1000-ə yaxın vəzifə birdəfəlik ixtisar edilmişdir.

Daha sonra icra komitələri Baş Rəhbərlər Qrupunun yaradılması ilə birbaşa olaraq baş katibin dəftərxanası ilə birləşdirilmişlər. Qrupun "kabineti"nə BMt-nin bütün departament, fond və proqramlarının rəhbərləri daxildir.

Təşkilat strukturunun gücləndirilməsi üçün bir sıra departamentlər və şöbələr birləşdirilmişdir. Məsələn üç departament yeni yaradılmış iqtisadi və sosial məsələlər üzrə departamentdə cəmləşdirilmişdir.

Ölkələr səviyyəsində BMT-nin təşkilatlanması gücləndirilmişdir. Belə ki, BMT-nin bütün fond və proqramlarının ölkələr üzrə şöbələri 1997-ci ilə qədər adətən ayrı-ayrı ofislərdə yerləşirdilər. Vəsaitin qənaət edilməsi və daha səmərəli birgə işin təşkili üçün ümumi ofis sahələrindən və eyni xidmət təchizatçılardan istifadə etmək tövsiyə edilmiş, 50-dən çox ölkədə BMT Evləri yaradılmışdır.

Bundan əlavə, 1997-ci ildə baş katib ölkələrdə iş planlarını bir-birlərinə inteqrasiya etmək üçün BMT-nin rezident-əlaqələndiricilərinə daha geniş səlahiyyətlər vermişdir. Koordinasiyanı yüngülləşdirmək və BMT-nin yardımını ölkələrin strategiyaları və prioritetlərinə tam uyğunlaşdırmaq üçün iki əlavə alət yaradılmışdır: ölkənini ehtiyacını müəyyən edən Ölkənin Vəziyyətinin Ümumi Qiymətləndirilməsi və İnkişaf Məqsərilə Yardımın Göstərilməsi üzrə BMT-nin Çərçivə Proqramı.

BMT sistemi təşkilatlarının fəaliyyətinin canlandırılmasında əsas addım 1944-cü ildə Bretton Vudsda yaradılan institutlarla münasibətlərin təkmilləşdirilməsi oldu. BMT-nin bir tərəfdən Dünya Bankı ilə, dugər tərəfdən isə Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlıq dərəcəsi bu təşkilatlar yaradılarkən nəzərdə tutulan səviyyəyə heç zaman çatmayıb. 1998-ci ildən başlayaraq BMT-nin İqtisadi və Sosial Şurası bretton-vuds institutlarının üzv-ölkələrinin müliyyə nazirləri ilə bir neçə illik görüşlər keçirib. Nəticədə 2002-ci ildə Meksikanın Monterrey şəhərində Dünya Bankı və Beynəlxalq Valyuta Fondunun aktiv iştirakı ilə İnkişafın Maliyyələşdirilməsi üzrə Beynəlxalq Konfrans keçirilmiş, bir sıra mühüm nailiyyətlər əldə edilmişdir.

2002-ci il mayın 1-dən etibarən əməkdaşların işə götürülməsi, yerləşdirilməsi və vəzifələrinin artırılması üçün yeni sistem tətbiq edilmişdir. Bu sistemdə əməkdaşın nailiyyətləri və kompetentliyinə daha çox üstünlük verilir və onun vəzifədə olma müddəti və presedentlər daha az nəzərə alınır. Yeni kadr mexanizmlərinin ümumi "paketi"nin bir hissəsi olan bu sistem çərçivəsində proqram rəhbərləri baş katiblə imzalanmış müqaviləyə uyğun olaraq, kadrların müstəqil yığılması səlahiyyətini alırlar. Bu müqaviləyə əsasən, onlar həm də əldə olunmuş nəticələrə görə məsuliyyət daşıyırlar. Beləliklə, qərarların qəbul edilməsində məsuliyyətin daha aşağı səviyyələrə (əməliyyat səviyyəli əməkdaşlara qədər) ötürülməsi istiqamətində planlı iş aparılır.

Baş katib tərəfindən 2000-ci ilin avqustunda təqdim edilən "İnsan resurslarının idarə edilməsinin islahatı" adlı hesabatda işçi yığımının və kadrların yerləşdirilməsinin müddətinə toxunulur. BMT-nin personalda müxtəlif ölkələrəin nümayəndələrinin təmsil edilməsinin zəruriliyi prinsipinə daim əməl etməsi, həmçinin əməkdaşların yüksək peşəkarlığının təmin edilməsi ilə eyni zamanda gender balansının yaxşılaşdırılması o deməkdir ki, işə qəbul haqqında qərar o biri təşkilatlarda olduğu kimi sürətlə qəbul edilə bilməz. Lakin son illərdə işə götürmə prosesinin orta müddəti 400 gün təşkil edirdi ki, bu da həddindən artıq çoxdur. Yeni qəbul edilmiş sistem bu müddəti 90 günə salmağı nəzərdə tutur. Insan resurslarının idarə edilməsi həmçinin əməkdaşların iki həftə ərzində üfiqi yerdəyişmələrini təsdiq etməli və həyata keçirməlidir.

Proses həmçinin daha şəffaf xarakter almışdır, belə ki, bütün boş iş yerləri barədə məlumat BMT-nin internet saytında yerləşdirilmişdir.

Baş katibin hesabatında həmçinin Katibliyin əməkdaşlarının mobilliyi məsələsinə də toxunulmuşdur. Müxtəlif peşə sahibləri olan ixtisaslı əməkdaşların daxil olduğu daha universal vətəndaş xidmətlərinin yaradılması məqsədilə konkret bir vəzifədə qalma müddəti məhdudlaşdırılmışdır. Eyni zamanda, mənzil-qərargahdan daha uzaq nöqtələrdə çalışanlar xüsusi olaraq stimullaşdırılır, personalın öyrənilməsi üçün əlavə proqramlar tətbiq edilir və artıq işləyən əməkdaşların səviyyələri artırılır.

Digər tərəfdən, BMT-nin rəhbər həlqələrinin əməkdaşları insan resurslarının idarə edilməsi sahəsində intensiv kur keçməlidirlər ki, bu da kadrlarla işin keyfiyyətinin artırılmasında mühüm rol oynaya bilər. Bundan əlavə, yeni attestasiya sistemi tətbiq edilməyə başlanmışdır.

Kardinal islahatlar sırasına daxili nəzarət xidmətləri üzrə baş katib müavininin təyin edilməsi, əməliyyat xərclərinin ixtisar edilməsi, yüksək vəzifəli şəxslərin sayının azaldılması və təxminən 1000-ə yaxın vəzifənin ləğv edilməsi də aiddir. Səkkiz il ardıcıl olaraq BMT-nin müntəzəm büdcəsinin nominal dəyərdə “sıfır” artımı təmin edilmişdir.

Həyata keçirilən islahatları qısa şəkildə aşağıdakı kimi məcmulaşdırmaq olar:

- qeyri-prioritet fəaliyyət və inzibati xidmət üçün nəzərdə tutulmuş resursların üzv-dövlətlər tərəfindən müəyyən edilən prioritet tədbirlərin həyata keçirilməsi üçün istifadə edilməsi;
- inzibati xərclərin azaldılması və qənaət edilən vəsaitin inkişaf məqsədilə həyata keçirilən fəaliyyətə yönəldilməsi;
- BMT-nin dörd əsas istiqamət (sülh və təhlükəsizlik, inkişaf, iqtisadi və sosial məsələlər, humanitar məsələlər) üzrə iş proqramının yenidən qurulması;
- BMT-nin gündəlik fəaliyyətinə nəzarət edilməsi və islahatların gedişinin koordinasiya edilməsi üçün baş katibin birinci müavininin təyin edilməsi;
- vəzifəsi təftişlərin, qiymətləndirmələrin, nəzarətin, inspeksiyaların və təhqiqatların həyata keçirilməsi olan Daxili Nəzarət Xidməti İdarəsinin yaradılması;
- qərarların qəbul edilməsinin sürətləndirilməsi və koordinasiyanın yüksəldilməsi üçün BMT-nin baş rəhbərlərinin daxil olduğu kabinetin yaradılması;
- bütün səviyyələrdə personalın idarə edilməsinin təkmilləşdirilməsi məqsədilə kardinal kadr islahatlarının həyata keçirilməsi.

2003-cü ilin sentyabrında BMT baş katibi təşkilatda yeni islahatlar mərhələsinin başlandığını bəyan etdi. Onun təqdim etdiyi hesabatda BMT-nin sonrakı güclənməsi planı əks olunmuşdu.

Hesabat BMT-nin bütün təsisatlarına və fəaliyyət növlərinə təsir edəcək yenidənqurmaları müəyyən edir. Hesabatda qeyd olunur ki, vəzifə heç də təşkilatın büdcəsinin ixtisar edilməsindən ibarət deyil. Əsas vəzifə ondan ibarətdir ki, təşkilat öz fəaliyyətinə tənqidi yanaşmalı, bu fəaliyyətin “Minillik Bəyannaməsi”nin məqsədlərinin reallaşdırılması nöqteyi-nəzərindən aktual olub-olmadığı müəyyən edilməlidir. Əgər cavab mənfi olsa onda bu cür fəaliyyətdən imtina edilməlidir.

Hesabatda islahatlar prosesinə aid olan praqmatik təkmilləşdirmə təkliflərinin geniş paketi əks olunmuşdur ki, onlardan da bəziləri aşağıdakılardır:

- təşkilatın iş proqramlarının hərtərəfli icmalı: bu, təşkilatın doğrudan da vacib olan işlərlə məşğul olmasını və artıq köhnəlmiş və ya qarşıya qoyulmuş vəzifəyə aid olmayan işlərə vaxt və vəsait xərcləməməsini təmin etmək üçündür;
- BMT-nin insan haqları və ictimai informasiya sahəsində işinin təkmilləşdirilməsi üzrə ətraflı təkliflər: BMT informasiya mərkəzləri şəbəkəsi Qərbi Avropadan başlayaraq, regional qovşaqların yaradılması yolu ilə yenidən təşkil ediləcəkdir. İctimai İnformasiya departamentinin strukturunda təkmilləşdirmələr aparılacaq, kommunikasiya sahəsində razılaşdırılmış strategiyalar işlənəcək və kütləvi informasiya vasitələri və kommunikasiya sahələrində yeni texnologiyaların verdiyi üstünlüklərdən istifadə ediləcək;
- təkrarlanmanın qarşısının alınması üçün iclasların və dərc edilən hesabatların sayının ixtisarı;
- ayrıca götürülmüş ölkə səviyyəsində BMT təsisatları arasında koordinasiyanın yaxşılaşdırılması üzrə tədbirlər: bu, proqramların birgə tərtibi, ümumi informasiya bazasının və biliklərlə mübadilə şəbəkəsinin yaradılması və resursların birləşdirilməsi yolu ilə həyata keçiriləcək;
- həddən artıq mürəkkəb olan və iri əmək xərcləri tələb edən büdcə və planlaşdırma sistemlərində dəyişikliklər edilməsi;
- BMT və vətəndaş cəmiyyəti arasında münasibətlərin müstəqil ekspertlər qrupu tərəfindən qiymətləndirilməsi və müvafiq tövsiyələrin irəli sürülməsi;
- BMT əməkdaşlarının stimullaşdırılması və onların iş keyfiyyətlərinin yüksəldilməsinə yönəldilmiş təkliflər: bu, personalın müxtəlif iş yerləri, funksiyalar və hətta təşkilatlar arasında mobilliyinin yüngülləşdirilməsi vasitəsilə həyata keçiriləcək.

Bütün deyilənlərə baxmayaraq, BMT qlobal bir təşkilat kimi özünün əhəmiyyətini saxlamaqdadır və bu ən azə aşağıdakılarla xarakterizə olunur:

- münaqişələrlə zəngin olan dünyada BMT hökumətlərə təcili məsləhətləşmələr həyata keçirməyə imkan verir və uzunmüddətli problemlərin həlli üçün forum rolunda çıxış edir;
- BMT vacib qlobal məsələlər (məsələn, ətraf mühit və qeyri-qanuni narkotiklər) üzrə fəaliyyəti stimullaşdırır və bu problemlərin həlli üçün zəruri olan beynəlxalq əməkdaşlığın təşkili və davam etdirilməsi üçün saha səmərəli mexanizmlər təklif edir;

- BMT və onun təsisatları iqtisadiyyatı gücləndirməyə və maliyyə bazarlarını sabitləşdirməyə kömək edirlər, onlar xəstəliklərlə mübarizəyə, ərzaq istehsalının genişləndirilməsinə və həyat müddətinin artırılmasına dəstək verirlər;
- BMT və onun təsisatları zəif qrupları (uşaqlar, qaçqınlar, məcburi köçkünlər, azlıqlar, yerli xalqlar və əlillər) müdafiə ilə təmin edirlər;
- BMT və onun təsisatları beynəlxalq qarşılıqlı əlaqə sahələrində mühüm həyati əhəmiyyətə malik texniki və hüquqi normaların işlənməsinə şərait yaradırlar.